8 yanvar 2021-ci il
№01 (8909)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# 2020 Təqvim ili rəqəmlərdə

Məktəbəqədər və ümumi təhsil



*166 minədək uşaq birinci sinfə gedib*

2020-2021-ci dərs ilində ölkənin bütün ümumi təhsil müəssisələrinin I siniflərinə şagird qəbulu elektron qaydada həyata keçirilib. Tədris ilində birinci siniflərə 165511 uşaq qəbul edilib.

*Ölkə üzrə 104 min uşaq məktəbəhazırlığa cəlb edilib*

2020-2021-ci tədris ilində ölkə üzrə ümumilikdə 6577 məktəbəhazırlıq qrupuna 104 min uşaq cəlb olunub. Məktəbəhazırlıq qruplarına qəbul *https://mektebeqebul.edu.az* elektron sistemi vasitəsilə həyata keçirilib.

*İcma əsaslı məktəbəqədər təhsil qrupları*

Ölkə üzrə 50 rayon və şəhərdə təşkil edilən, ümumi sayı 500-ə çatan icma əsaslı məktəbəqədər təhsil qruplarında 9207 nəfər 3-4 yaşlı uşaq təhsilə cəlb edilib. Pandemiya dövründə "İcma əsaslı məktəbəqədər təhsilin inkişafı" layihəsi çərçivəsində UNICEF-in maliyyə dəstəyi ilə "Mədəniyyət" kanalında "Oynayırıq və öyrənirik" adlı teledərslər nümayiş olunub.

➪Ardı səh.9

## Təhsil Nazirliyinin saytı unikal giriş sayına görə birincidir

Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzi (CERT) 2020-ci ildə dövlət orqanları üzrə ən çox istifadəçi müraciəti qeydə alınan rəsmi internet resurslarının siyahısını açıqlayıb.

Aparılan təhlillərə görə, Təhsil Nazirliyinin rəsmi internet saytı ən çox müraciət olunan internet resursları sırasındadır. Nazirliyin rəsmi internet saytı toplam giriş sayına görə ilk onluğun ikinci, unikal giriş sayına görə isə birinci pilləsində yer alıb.

Qeyd edək ki, ötən ildə nazirliyin rəsmi internet saytına ümumi baxış sayı 1933680 nəfər təşkil edib. Ölkələr üzrə baxış sayına görə ilk onluqda ABŞ, Almaniya, Niderland, Rusiya, Böyük Britaniya, Fransa, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri yer alır.

## Amerikada ilkə imza atan azərbaycanlı gənc

Azərbaycan hər zaman istedadlı gəncləri ilə fəxr edib. Onların dünyanın müxtəlif ölkələrində əldə etdiyi uğurlar hər zaman bizləri sevindirib. İstedadlı gənclərimizin uğurları ölkəmizdə insan kapitalına qoyulan ən mühüm investisiyaların artıq öz müsbət bəhrələrini verdiyinə əyani nümunədir. Belə gənclərdən biri son illər Türkiyə, Amerika Birləşmiş Ştatlarında təhsil karyerasında, iş fəaliyyətində ciddi uğurlar qazanmış Anar Qocayevdir. Azərbaycanın xaricdə rezidentura təhsili almış ilk tələbələrindən olan A.Qocayev rezidenturadansonrakı təhsil pilləsinə (fellowship) qəbul olaraq növbəti ilkə imza atıb.

➪Ardı səh.16

## 15900 tələbənin təhsil haqqı xərcləri dövlət tərəfindən ödənilib

2020-2021-ci tədris ili üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi məqsədi ilə sosial həssas əhali qrupuna aid edilən 24147 tələbə *e-telebe-.edu.az* portalına müraciət edib. Onlardan 15900 nəfərin ödənişi ali təhsil müəssisələrinə artıq ödənilib.

Qeyd edək ki, pandemiya dövründə Nazirlər Kabineti tərəfindən "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərar qəbul edilib. Qərar 30 mindən artıq tələbəni əhatə edib. Qərarın icrası üçün dövlət büdcəsindən 40 milyon manat maliyyə vəsaiti ayrılıb.

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi sistemi – *http://e-telebe.edu.az/* portalı istifadəyə verilib.



**Teymur Rəcəbov Levon Aronyanı məğlub etdi**

➪səh.4




**"Hələ deməyə çox sözüm var"**

➪səh.6



**Şəhid müəllimin Vətən sevgisi**

➪səh.15

# Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq **qərara alıram:**

**1.** 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 yanvar 2021-ci il*



## K.M.Abdullayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə Kamal Mehdi oğlu Abdullayev "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## R.İ.Şükürova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Texniki Universitetinin 70 illiyi münasibətilə Azərbaycanda mühəndis kadrlarının hazırlanması və texniki elmlərin inkişafında uzunmüddətli xidmətlərinə görə Rəhim İzzət oğlu Şükürova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## N.M.Vəlixanlının "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elmin inkişafında böyük xidmətlərinə görə Nailə Məmmədəli qızı Vəlixanlı "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirmək məqsədilə **qərara alıram:**

**1.** Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilsin və onun aylıq məbləği elmlər doktoru elmi dərəcəsinə görə 200 manat, fəlsəfə doktoru elmi dərəcəsinə görə 120 manat müəyyən olunsun.

**2.** Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1. 2021-ci ilin yanvarın 1-dək əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyaçılarının ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 20-ci maddəsinə əsasən qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçıları istisna olmaqla) əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə, habelə bu kateqoriyadan olan pensiya hüququ yaranacaq şəxslərə verilir;

2.2. dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4.** Bu Fərman 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**

Babanlı Mustafa Baba oğlu
Əliyev Araz Rafiq oğlu
Qardaşova Lətafət Abbas qızı
Məmmədov Pərviz Ziya oğlu

**"Əməkdar müəllim"**

Əhmədov Əli Hikmət Soltan Əhməd oğlu
Əmirov Fariz Əli oğlu
Həsənov Ələkbər Ağasəf oğlu
İmanova Gülarə İsrafil qızı
Qurbanov Əzizağa Şıxı oğlu
Məmmədov Qasım Əmir oğlu
Musayev Müsavər Abdusalam oğlu
Naibova Tamilla Muxtar qızı
Nərimanov Nəriman Rüstəm oğlu
Yusifov Səməd İmaməli oğlu
Zeynalov Razim Abdul oğlu

**"Əməkdar mühəndis"**

Həbibov İbrahim Əbülfəz oğlu
İsmayılov Qafar Qulamhüseyn oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Salavatov Tulparxan Şarabudinoviç

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Camalov Rafiq İbrahimoviç
Kərimov Cahid Əli oğlu
Məmmədova Lətifə Rəsul qızı
Yusifov Səlahəddin İmaməli oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Vaqif Abbas oğlu
Ağayev Ağamehti Mirhəşim oğlu
Ağayev Fərid Hacı oğlu
Babayev Ata Manaf oğlu
Babayev Mais Sərkər oğlu
Bağıyev Vaqif Laçın oğlu
Bəkirova Lalə Rüstəm qızı
Cabbarova Natella Eyyub qızı
Eyvazova Züleyxa Eylaq qızı
Əfəndiyeva Zərifə Cahangir qızı
Əhmədov Elburus Nasi oğlu
Əliyarov Rauf Yusif oğlu
Əliyev Aydın Qardaşxan oğlu
Əliyev Ələsgər Məhərrəm oğlu
Əliyev Teyyub Qəni oğlu
Əliyeva Bəyim-xanım Böyük Ağa qızı
Əliyeva Nərminə Tərlan qızı
Həsənov Yaşar Həsən oğlu
Həsənov Zakir Əlikram oğlu
Həsənova Nailə İsmayıl qızı
Hüseynov Hamlet Bəkir oğlu
Hüseynova Fəridə Əlniyaz qızı
İsmayılov Rasim Teymur oğlu
Qəhrəmanlı Yunis Nəcəf oğlu
Quliyev Ağəli Əhməd oğlu
Məmmədxanova Sevinc Əbdülhəmid qızı
Mustafayev Camal Mehdi oğlu
Mürşüdli Çingiz Cəfər oğlu
Paşayev Naməd Vəliş oğlu
Rəhimova Nazilə Əli qızı
Rəsulov Sakit Rauf oğlu
Seyidov Vaqif Mirhəmzə oğlu
Səfərov Qənimət Əsəd oğlu
Sultan-zadə Sədaqət Sultan qızı
Süleymanov Qəzənfər Salman oğlu
Süleymanov Tahir Süleyman oğlu
Süleymanova Elmira İsmayılovna.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Texniki Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Texniki Universitetinin 70 illiyi münasibətilə Azərbaycanda mühəndis kadrlarının hazırlanması və texniki elmlərin inkişafında xidmətlərinə görə Azərbaycan Texniki Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**

Hüseynov Rafiq Qurban oğlu
Rəsulov Nəriman Moğbil oğlu

**"Əməkdar müəllim"**

Abidov Çingiz Cabbar oğlu
Əhməd Abdullah Əmrullah oğlu
Haxiyev Ələbbas Seydi oğlu
Hüseynov Ələkbər Güləhməd oğlu
Xəlilov İsa Əli oğlu
Məmmədov Əhməd Adil oğlu
Namazov Sübhan Nadir oğlu
Rzayeva Gülşən Dəmirqan qızı
Rzayeva Nuriyyə Əsgər qızı

**"Əməkdar mühəndis"**

Baxşəli Valeh İsmixan oğlu
Bayramov Razim Paşa oğlu
Əliyev Hikmət Səxavəddin oğlu
Kərimov Ziyafət Xeyrulla oğlu
Yusubov Nizami Dəmir oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Milli Konservatoriyasının əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Milli Konservatoriyasının 20 illiyi münasibətilə və Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Milli Konservatoriyasının aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**

Həşimov Elçin Ləzgi oğlu
Mansurov Elşən Məmməd oğlu
Mansurov Malik Məmməd oğlu

**"Əməkdar incəsənət xadimi"**

Hüseynova Lalə Şirməmməd qızı

**"Əməkdar mədəniyyət işçisi"**

Seyidova Yaqut Şıxseyid qızı

**"Əməkdar müəllim"**

Abdinzadə Firuz Zeynal oğlu
Ələkbərov Sabir Ələkbər oğlu
Əliyev Adgözəl Məmmədhüseyn oğlu
Nağıyev Elçin Ağaşirin oğlu
Şahməmmədova Naibə Məqsud qızı
Yusifova Təranə Əbülfəz qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Texniki Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Texniki Universitetinin 70 illiyi münasibətilə və Azərbaycan Respublikasında təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Texniki Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Kərimov Savalan Xanlar oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Hüseynov Qabil İsmixan oğlu
Mahmudov Müdafiə Cəmil oğlu

**"Tərəqqi" medalı ilə**

Çələbi İftixar Qurbanəli oğlu
Daşdəmirov Fuad Səmid oğlu
Həsənli Ramiz Kamandar oğlu
Məmmədova Zöhrə Hüseyn qızı
Rzayev Elçin David oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Milli Konservatoriyasının əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Milli Konservatoriyasının 20 illiyi münasibətilə və Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Milli Konservatoriyasının aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şərəf" ordeni ilə**

Kərimi Siyavuş Əşrəf oğlu

**2-ci dərəcəli "Əmək" ordeni ilə**

Kazımov Nazim Kazım oğlu

**"Tərəqqi" medalı ilə**

Bayramov Təyyar Allahverdi oğlu
Əhmədov Elnur Oruc oğlu
Əliyeva Ülkər Sabir qızı
Əzizov Ramiz Mahmud oğlu
Fətalıyev Şirzad Nizan oğlu
Hacızadə Hicran Səməd-ağa qızı
Hüseynli Anar Vaqif oğlu
Məmmədov Məmmədəli Mirəli oğlu
Müzəffərov Bakıxan Məmmədqulu oğlu
Paşazadə Sahib Ağaverdi oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

# Qrossmeyster Teymur Rəcəbova

Əziz Teymur,

"Airthings Masters" şahmat turnirində qələbə qazanmağın münasibətilə səni səmimi qəlbdən təbrik edirik.

Sənin bu yarış zamanı peşəkarlıq, iradə və əzmkarlıq nümayiş etdirərək qazandığın inamlı qələbə Azərbaycan xalqını sevindirdi. Sənin bu uğurun, eyni zamanda, xalqımızın yüksək intellektual potensialının bariz göstəricisidir.

Sənə ən xoş arzularımızı yetirir, gələcək uğurlar və yeni-yeni şahmat zirvələrini fəth etməyi diləyirik.

Hörmətlə,

**İlham Əliyev və Mehriban Əliyeva**

*Bakı şəhəri, 3 yanvar 2021-ci il*



## Teymur Rəcəbov Levon Aronyanı məğlub etdi

### Azərbaycanlı qrossmeyster "Airthings Masters" turnirinin qalibi oldu

Azərbaycan şahmatçısı Teymur Rəcəbov "Champions Chess Tour" çərçivəsində rapid üzrə onlayn keçirilən "Airthings Masters" turnirinin finalında erməni rəqibi Levon Aronyanı 4,5:2,5 hesabla məğlub edərək qalib olub.

AZƏRTAC xəbər verir ki, şahmatçımız final mərhələsinin cavab matçında rəqibi L.Aronyanla birinci partiyada heç-heçə edib, ikinci partiyada qələbə qazanıb. Üçüncü partiyada daha bir heç-heçəyə imza atan şahmatçımız turnirdə birinci yeri tutub.

Qeyd edək ki, T.Rəcəbov dünən keçirilmiş birinci matçda rəqibinə 2,5:1,5 hesabla qalib gəlib.

Xatırladaq ki, "Airthings Masters" turnirinin seçmə mərhələsini 6 xalla beşinci yerdə başa vuran şahmatçımız dörddəbir finalda Rusiya təmsilçisi Yan Nepomnyaşini, yarımfinalda bu ölkənin digər şahmatçısı Daniil Dubovu məğlub edib.

## "Qalib gəldiyim üçün xoşbəxtəm"

### Teymur Rəcəbov qələbəsi barədə danışarkən belə deyib

Bu gün həqiqətən çox çətin idi. Sona qədər diqqətimi itirməməyə çalışdım.

AZƏRTAC xəbər verir ki, bu sözləri azərbaycanlı şahmatçı Teymur Rəcəbov "Champions Chess Tour" çərçivəsində rapid üzrə onlayn "Airthings Masters" turnirindəki qələbəsi barədə danışarkən deyib.

O qeyd edib ki, rəqibi Levon Aronyan mükəmməl oyun nümayiş etdirib: "Levon Aronyan çox yaxşı oyun nümayiş etdirdi. Mən əlimdən gələni etdim. Həqiqətən çətin bir matç oldu və qalib gəldiyim üçün xoşbəxtəm".

Teymur Rəcəbov onu da bildirib ki, turnirdə qalib ola biləcəyinə inanırdı. O, ilk partiyanın onun üçün xoşagəlməz olduğunu, əsəbləşsə də amma sakit olmağa və mövqeyini qorumağa çalışdığını bildirib.




# Təhsil naziri xaricdə akademik fəaliyyətlə məşğul olan bir qrup soydaşımızla virtual görüşüb

Təhsil naziri Emin Əmrullayev "Həmrəylik Günü" və "Vətən müharibəsi"ndəki qələbə münasibəti ilə xaricdə akademik fəaliyyətlə məşğul olan, dünyanın aparıcı universitetlərində çalışan bir qrup həmyerlimizlə virtual şəkildə görüş keçirib.

Görüşün əsas məqsədi xaricdə akademik fəaliyyətlə məşğul olan soydaşlarımızın ölkəmizdə təhsil sahəsinin inkişafı ilə bağlı təkliflərini dəyərləndirmək, eyni zamanda bu sahədə aparılan islahat və görüləcək işlər barəsində həmyerlilərimizi məlumatlandırmaqla yanaşı, onların bu prosesə fərdi töhfəsini müəyyən etməkdən ibarət olub.

Görüşdə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil almış, dünyanın qabaqcıl xarici ali təhsil müəssisələrində elmi araşdırma ilə məşğul olan məzunlar, eyni zamanda digər təqaüd proqramları və ya şəxsi vəsaiti hesabına xaricdə təhsil almış və hazırda xarici ali təhsil müəssisələrində akademik heyətdə təmsil olunan şəxslərin bir qismi iştirak edib.

Tədbir iştirakçıları ölkəmizdə elm və təhsilin inkişafı üçün xarici təcrübədən yararlanmaq məqsədi ilə fikir mübadiləsi aparıb, ali təhsil müəssisələrində tədris və tədqiqatın inkişaf etdirilməsi üçün təkliflərini səsləndiriblər.

Sonda Təhsil naziri Emin Əmrullayev görüş iştirakçılarını Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun Vətən müharibəsindəki tarixi qələbəsi və qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edib, hər birinə uğurlar arzulayıb.

Qeyd edilib ki, görüşdə səsləndirilən təkliflərin aidiyyəti üzrə dəyərləndirilməsindən sonra xaricdə akademik müstəvidə təmsil olunan soydaşlarımızın tədris, təlim və tədqiqat imkanları üzrə töhfəsi nəzərdən keçiriləcək və ictimaiyyətə müvafiq şəkildə məlumat veriləcək.




# Təhsilin inkişafı naminə

**Oruc MUSTAFAYEV**

## Xaricdə çalışan soydaşlarımız təkliflərlə çıxış ediblər

Məlum olduğu kimi, ötən ilin sonlarında Təhsil naziri Emin Əmrullayev 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Vətən müharibəsindəki qələbə münasibəti ilə dünyanın aparıcı universitetlərində çalışan, akademik fəaliyyətlə məşğul olan bir qrup həmyerlimizlə virtual şəkildə görüş keçirib. "Azərbaycan müəllimi" qəzetinə müsahibələrində alimlərimiz görüşlə bağlı təəssüratlarını bölüşüblər.

### "Görüşdə mənim müşahidələrim təsdiqləndi..."



*Qərib Mürşüdov, Böyük Britaniya, Kembric Universitetinin Molekulyar Biologiya Qrupunun rəhbəri, professor:* - Dekabr ayının 28-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə Azərbaycanın Təhsil naziri bir neçə mütəxəssis ilə görüş keçirdi və fikir mübadiləsi etdi. Görüş mənim gözlədiyimdən dəfələrlə səmimi oldu və cənab nazir çox xoş təəssürat yaratdı. Azərbaycanda təhsil və elm sahəsində olan problemlərə toxunuldu və müəyyən mümkün istiqamətlər müzakirə edildi. Bu görüşdə mənim müəyyən müşahidələrim təsdiqləndi:

1. Azərbaycanda təhsildə olan problemlər məlumdur və onların həll edilməsi üçün addımlar atılır. Cənab nazirin mütərəqqi mövqeyi və hamını diqqətlə dinləyərək onlara reaksiya verməsi onun bu problemlərə necə ciddi yanaşdığını göstərir. Mənə belə gəlir ki, ölkədə və xaricdə olan mütəxəssislərin onun etmək istədiyi işlərə kömək etməsi yaxşı olardı.
2. İnformasiya texnologiyası və ümumiyyətlə, kompüter elmlərinin vacibliyi, bu istiqamətlərin inkişafı üçün həm ədəbiyyatların tərcüməsi, həm də mütəxəssislərin hazırlanması problemi geniş müzakirə olundu. Ümid edirəm ki, bu müzakirələr qərarlar və müəyyən işlərlə nəticələnəcək.
3. Harada olmasından asılı olmayaraq Azərbaycandan olan mütəxəssislər ölkəmizdə inkişafa kömək etmək istəyirlər və bunun üçün yollar axtarırlar. Bu məqsədlə mövcud olan əhvali-ruhiyyədən və insan resurslarından istifadə edilməsi vacibdir. Bunun üçün müəyyən mexanizmlər yaradılmalıdır. Bu insanların Azərbaycanda fəaliyyət göstərməsi üçün şərait yaradılması yaxşı olardı. Məsələn, müəyyən şərtlər daxilində ikili vətəndaşlığın olmasına icazə verilməsi, birgə elmi laboratoriyaların təşkili üçün mexanizmlərin yaradılması.
4. Görüşdə təhsilin, elmin inkişafının iqtisadi inkişaf üçün şəratin yaradılması ilə eyni zamanda aparılması qeyd olundu.

Mən özüm, şəxsən cənab nazirə öz təşəkkürümü bildirirəm ki, müzakirə və fikir mübadiləsi üçün vaxt ayırdı. Ümid edirəm ki, müzakirələr ancaq müzakirə kimi qalmayacaq və gələcəkdə (lap yaxın gələcəkdə) problemlərin həlli və mövcud olan insan resurslarından səmərəli istifadə üçün mexanizmlər yaradılacaq.




### "Umid edirəm ki, belə görüşlərin sayı çox olacaq"

*Cəfər Cəfərov, ABŞ-ın Stanford Universitetinin PhD məzunu, tədqiqatçı:* - Cənab nazirlə görüş çox maraqlı keçdi. Nazir əvvəlcə görüş istirakçılarını həm qarşıdan gələn bayramlar, həm də Vətən müharibəsində qazandığımız Qələbə münasibətilə təbrik etdi. Daha sonra Azərbaycanda elmin, universitetlərdəki təhsilin və elmi araşdırmaların səviyyəsinin yüksəldilməsi, yeni kadrların yetişdirilməsi ilə əlaqədar fikirlərini bölüşdü. Bu yolda görülən işlər və qarşıda nə kimi planların olduğunu diqqətə çatdırdı. Daha sonra görüş istirakçıları qaldırılan məsələlələrə dair fikirlərini söylədilər. Dünyanın fərqli mötəbər universitetlərində çalışan bir neçə alim öz fikirlərini, gördükləri problemləri və onlardan mümkün çıxış yollarını səsləndirdilər. Cənab nazir təklifləri qeyd edərək sonda bəzilərinə cavab verdi və səslənən fikirlərin dəyərləndiriləcəyini bildirdi. Öz fikir və təkliflərini irəli sürən alimlərlə daha sonra əlaqə saxlayıb ətraflı müzakirə aparacaqlarını vurğuladı.

Görüş ümumən çox gözəl keçdi. Bəzi iştirakçılar uzun illər xarici universitetlərdə elmi işlə məşğul olmalarına baxmayaraq, onlarla ilk dəfədir ki, bu formatda görüs keçirildiyini və fikirlərinin alındığını qeyd etdilər. Ümid edirəm ki, belə görüşlərin sayı çox olacaq və buradan da alınan fikir mübadiləsi və planlarla Azərbaycanda elm və təhsil daha da inkişaf edəcək.

# Təhsil nazirindən təqaüddə olan könüllü müəllimlərə təşəkkür






Təhsil naziri Emin Əmrullayev təqaüddə olmalarına baxmayaraq, “Dərs vaxtı” layihəsində könüllü iştirak edən müəllimlərimiz – Nüşabə Məmmədova və Qita Veyseyskayaya təşəkkür məktubu ünvanlayıb. Nazir bu barədə rəsmi “Facebook” səhifəsində belə qeyd edir:

“Bildiyimiz kimi, başa çatmasına bir neçə gün qalan 2020-ci il ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə “Könüllülər ili” elan edilmişdi. Pandemiya şəraiti olmasına baxmayaraq, ölkəmizdə müxtəlif sahələrdə könüllülük hərəkatı geniş vüsət aldı. Bu sırada Vətən müharibəsində könüllü olaraq döyüşlərə qatılan müəllimlərimiz kimi arxa cəbhədə övladlarımıza könüllü dərs deyən pedaqoqlarımız da oldu.

Bu ilin martından teledərslərin hazırlanması prosesinə könüllü qatılan, gənclərə örnək olan müəllimlərdən ikisi barədə danışmaq istərdim. Müəllimlərimiz Nüşabə Məmmədova və Qita Veyseyskaya təqaüddə olmalarına baxmayaraq, könüllü şəkildə teledərslər vasitəsilə şagirdlərimizə dərs deyiblər. Özü də bu işi sevə-sevə, ürəklə, yüksək keyfiyyətlə görüblər.

Çətin vaxtlarda hər iki müəllimimiz sözün əsl mənasında fədakarlıq nümayiş etdiriblər. Təhsil Nazirliyinin “Fəxri Fərman”ı ilə təltif olunan hörmətli müəllimlərimizə dəyərli əməkləri, göstərdikləri səylər üçün bir daha dərin təşəkkürümü bildirirəm”.




# “Hələ deməyə çox sözüm var”

## Könüllülər ilinə öz töhfəsini verən müəllimlər

2020-ci il ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə “Könüllülər ili” idi. Könüllülük hərəkatına təhsil işçiləri də böyük töhfə verdi. Vətən müharibəsində könüllü olaraq döyüşlərə qatılan müəllimlərimiz kimi arxa cəbhədə şagirdlərinə könüllü dərs deyən pedaqoqlar da oldu. Təqaüddə olmalarına baxmayaraq, “Dərs vaxtı” layihəsində könüllü iştirak edən iki müəllim – Nüşabə Məmmədova və Qita Veyseyskaya Təhsil Nazirliyinin “Fəxri Fərman”ı ilə təltif olunub.

### Qərbi Azərbaycandan başlayan yol

Həmin müəllimlərdən biri – Nüşabə Məmmədova “Azərbaycan müəllimi” qəzetinə özünün uğur hekayəsini danışıb. Sözlərindən belə məlum olur ki, Nüşabə xanım həyatı boyu birincilərdən olmağı artıq vərdişə çevirib. Qərbi Azərbaycandandır. Orta məktəbi qızıl medalla bitirib. Ali təhsil almaq üçün Azərbaycana gəlib. Həsənbəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda (indiki GDU) kimya-biologiya ixtisası üzrə ali təhsil alıb. Təhsilini bitirib yenidən Qərbi Azərbaycana qayıdaraq müəllimlik fəaliyyətinə başlayıb: “Əvvəllər həkim olmaq istəyirdim. Ancaq qız olduğum üçün, sadəcə müəllimlik barədə düşünə bilərdim. Ermənistanda yalnız ibtidai sinif müəllimliyi üzrə kadr hazırlanırdı. Ona görə fərqli ixtisas üzrə təhsil almaq üçün Azərbaycana gəlməliydim. Burada isə yalnız Gəncə şəhərində qohumlarım yaşayırdı. Ona görə də Gəncədəki ali məktəbi – Gəncə Dövlət Pedaqoji İnstitutunu seçdim. Bir imtahan verib “5” aldım və o vaxtkı qaydalara görə ali məktəbə daxil oldum. Yaxşı oxuduğum üçün institut rəhbərliyi mənə təhsil müəssisəsində qalıb işləməyi təklif etdi. Ancaq razılaşmayıb elimə-obama qayıtdım”.

1973-cü ildən başlayan karyerasına 1988-ci ildə o da daxil olmaqla, azərbaycanlıların öz yurd-yuvalarından qovulmasıyla ara verib. Araya dözülməz qaçqın həyatı sığışdıran Nüşabə müəllim həmin vaxta qədər Ermənistan təhsil sistemində fərqlənməyi bacarmışdı. 15 illik fəaliyyətində pillə-pillə yüksəlməyə başlamış, direktor müavini olmuş, hətta “baş müəllim” adı qazanmışdı. Ancaq olacağa çarə yoxdur. Qaçqın müəllim olmaq da varmış qismətində.

Qaçqınlığın ağrı-acısından başı ayılan kimi isə hər şeyə yenidən, sıfırdan başlayıb: “Qaçqınları məktəblərdə yerləşdirirdilər. Məni də indiki Binəqədi rayon 99 nömrəli tam orta məktəbə göndərdilər”.

Çox keçmədən 15 illik təcrübə öz sözünü deyib. Azərbaycan məktəbində Qərbi Azərbaycandan gələn biologiya müəlliminin sorağı sürətlə yayılmağa başlayıb. Hazırlıqlı şagirdləri olimpiadalarda göstərdikləri nəticələrlə müəllimindən bəhs etdirməyi bacarıblar.

2006-cı ildə “Tərəqqi” medalına, 2008-ci ildə “İlin müəllimi” adına layiq görülən Nüşabə Məmmədova 2015-ci ildən Əməkdar müəllimdir. “Həyat bilgisi” fənnindən 8 dərsliyin həmmüəllifidir.

### “Qazandığım hər uğurun arxasında məhz fəaliyyətim durur”

Ömür boyu sevilən, ehtiyac duyulan müəllimlərdən olub. Təqaüd yaşı tamam olsa da, 5 il müddətli müqavilə ilə məktəbdəki fəaliyyətinə davam edib: “1997-ci ildə yaşayış yerimə yaxın olduğu üçün iş yerimi 83 nömrəli məktəb-liseyə dəyişdim. İndiyədək bir neçə məktəb direktoru “Elçi daşının üstündəyəm” deyib məni öz məktəbinə dəvət edib. Hər zaman işimlə seçilib, fəaliyyətimlə fərqlənmişəm. Dəfələrlə seçilənlərdən olmuşam və bunun səbəbi ilə qürurlandırıb. Fəxr edirəm ki, 70 yaşım olmağına baxmayaraq, hələ uşaqlara lazımam. 8 dərslikdə adım var və hər ailədə, hər evdə adım səslənir, məni tanıyırlar. Bu yaşımda da təhsildə hələ deməyə çox sözüm var. Özümü hələ təhsilə lazımlı kadr hesab edirəm. Ona görə də istənilən layihədə sevə-sevə, ürəkdən iştirak edir, təmənnasız olaraq şagirdlərə müəllim, müəllimlərə təlimçi olaraq əlimdən gələn köməyi əsirgəmirəm. Xüsusən, rayonlarda yaşayanlara nə kömək lazım olsa, etməyə hazır olduğumu, demək olar ki, hər təlimdə demişəm. Müraciət edən hər kəsə əlimdən gələn köməyi əsirgəməmişəm. Dövlət İmtahan Mərkəzi ilə də sıx əməkdaşlıq edirəm, bunker müəllimlərindənəm. Təhsildə qiymətləndirmə ilə bağlı İngiltərədə olmuşam. Nailiyyətlərimdən danışarkən fəxrlə deyə bilərəm ki, bu illər ərzində qazandığım hər uğurun arxasında məhz fəaliyyətim durub”.

### Ailədə də uğur

Nüşabə müəllim, sadəcə məktəbdə yox, elə ailədə də uğur dalınca uğur qazanıb. 4 övlad anası yaxşı idarəçi olduğunu ailədə də təsdiqlədiyini deyir: “İki övladım özüm kimi məktəbi medalla bitirdi. Əgər medal ləğv edilməsəydi, digər 2 övladım da medalçı olacaqdı. Hər biri ali təhsilini də uğurla başa vurub müxtəlif sahələrdə nailiyyətlərini davam etdirdilər. Artıq estafeti nəvələrim alıb. İndi onların qazandığı nailiyyətlərlə sevinirəm”.

**Ruhiyyə DAŞSALAHLI**

# Macarıstanla təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb



Yanvarın 6-da Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında 2021-2023-cü illər üçün "Stipendium Hungaricum" proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, sözügedən Memorandumu Azərbaycan tərəfdən Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev, qarşı tərəfdən isə Macarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli Səfiri Viktor Szederkenyi imzalayıb.

Yeni Memorandum çərçivəsində Azərbaycan vətəndaşları Macarıstanda kənd təsərrüfatı və su ehtiyatlarının idarə edilməsi, təbiət elmləri və davamlı inkişaf, turizm, mühəndislik, informasiya texnologiyaları və texnologiyalar, iqtisadiyyat, biznes və idarəetmə elmləri ixtisas istiqamətləri ilə yanaşı tibb elmləri və beynəlxalq münasibətlər sahələri üzrə də təqaüdlü təhsil ala biləcəklər. Eyni zamanda azərbaycanlı gənclər "one-tier" magistr proqramı (bakalavriat və magistratura birgə) təhsil səviyyəsi üzrə də bu ölkənin ali təhsil müəssisələrində təhsil imkanı əldə edə biləcəklər.

Həmçinin ilk dəfə olaraq, Azərbaycan tərəfi Macarıstan vətəndaşları üçün 10 təqaüd yeri təqdim edəcək. Onlar bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaq hüququ əldə edə biləcəklər.

Qeyd edək ki, 2015-ci ildən etibarən Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında təhsil sahəsində sıx əməkdaşlıq həyata keçirilir. Bu günədək 2015-2017-ci və 2018-2020-ci illər üzrə Azərbaycan vətəndaşlarının Macarıstanda təqaüdlü təhsili ilə bağlı iki iş proqramı həyata keçirilib. Hər iki proqram üzrə ümumilikdə 1000-ə yaxın Azərbaycan vətəndaşı Macarıstanın "Budapest University of Technology and Economics", "Corvinus University of Budapest", "University of Szeged", "Eötvös Lorand University", "University of Debrecen" və "University of Pecs" kimi aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün ehtiyac duyulan ixtisas istiqamətləri üzrə təhsil almaq hüququ qazanıb.

# Əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib

Dekabrın 30-da Təhsil naziri Emin Əmrullayev Əfqanıstan İslam Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Jayhoon ilə görüşüb.

Görüşdə Azərbaycan və Əfqanıstan arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Görüşdə nazir Vətən müharibəsində əldə etdiyimiz qələbədən söz açıb və Ermənistan hərbi qüvvələrinin hücumları nəticəsində təhsil sahəsinə dəyən zərər barədə qonağa məlumat verib.

# İctimai səhiyyə sahəsində çalışan şəxslər üçün Çində təqaüd proqramı

Çin Xalq Respublikasının Tsinqua Universiteti İctimai Səhiyyə üzrə Vanke Məktəbi 2021-2022-ci tədris ili üzrə ictimai səhiyyə sahəsində çalışan şəxslər üçün təqaüd proqramı elan edir.

Proqrama yalnız dövlət müəssisələrində çalışan səhiyyə işçiləri və ya tibbi xidmət müəssisələrinin menecerləri müraciət edə bilərlər.

Magistratura səviyyəsi üzrə elan edilən təqaüd proqramına son müraciət tarixi 31 mart 2021-ci ildir.

Təqaüd proqramı haqqında ətraflı məlumatla elan vasitəsilə tanış ola bilərsiniz.

# Təhsil naziri İctimai Şura üzvləri ilə görüşüb

Dekabrın 29-da Təhsil naziri Emin Əmrullayev Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə onlayn formatda görüş keçirib.



İlin yekunlarına həsr olunmuş görüşdə Təhsil naziri əvvəlcə Şura üzvlərini Vətən müharibəsində əldə edilmiş qələbə münasibətilə təbrik edib və bunun dövlətimizin inkişafı üçün çox əhəmiyyətli hadisə olduğunu vurğulayıb. Emin Əmrullayev işğaldan azad edilmiş torpaqlarımızda növbəti il üçün təhsil istiqamətində əhəmiyyətli işlərin planlaşdırıldığını qeyd edib. Nazir eyni zamanda Şura üzvləri ilə 2021-ci ildə nazirlik tərəfindən planlaşdırılan fəaliyyətlər barədə də fikirlərini bölüşüb.

İctimai Şura sədri Şahlar Əsgərov da öz növbəsində qələbə münasibətilə təbriklərə qoşulub və 2021-ci ildə təhsil sahəsində böyük dəyişikliklər ili olacağına inamını qeyd edib.

Görüşdə iştirak edən Təhsil nazirinin müşaviri Elnur Nəsibov, Şura üzvləri Etibar Əliyev, Asif Cahangirov, Nadir İsrafilov, İlqar Orucov, Mirzə Cəfərzadə və Mais Əliyev 2020-ci ildə görülmüş işlər və 2021-ci ildə həyata keçirilməsi zəruri olan fəaliyyətlər barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Şura üzvləri nazirliyin 2020-ci ildə həyata keçirdiyi islahatlar barədə məlumatlandırılıb və bu işlərin mütəmadi olaraq ictimaiyyətə təqdim edilməsinin, eləcə də işğaldan azad edilmiş ərazilərdə təhsilin yenidən təşkili məsələlərində ictimaiyyətin də fəal iştirakının vacibliyi vurğulanıb.

Sonda təhsil naziri İctimai Şura üzvlərini qarşıdan gələn 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edib, işlərində müvəffəqiyyətlər arzulayıb. Nazir 2021-ci ildə Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcək islahat və tədbirlərin icrasında İctimai Şura ilə sıx əməkdaşlığın davam etdiriləcəyini bildirib.

# Təhsil İnstitutuna yeni direktor təyinatı



Təhsil naziri Emin Əmrullayevin müvafiq əmri ilə Təhsil İnstitutuna direktor təyin olunan Rüfət Əzizov institutun kollektivinə təqdim edilib.

Qeyd edək ki, Rüfət Əzizov 1998-ci ildə Beynəlxalq Mendeleyev Kimya Olimpiadasının qalibi kimi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsinə imtahansız qəbul olunub və 2003-cü ildə bitirib. 2017-ci ildə ADA Universitetində Biznesin təşkili və idarə edilməsi ixtisası üzrə magistr təhsili alıb. Kimya elmləri üzrə fəlsəfə doktorudur.

Bakı Ali Neft Məktəbinin MBA proqramı, kimya mühəndisliyi magistratura proqramında, eləcə də Layihələrin İdarə Olunması Məktəbində (PMI sertifikat) dərs deyir. Oksford Universitetinin İnnovasiyalar Mərkəzində elmi nəticələrin kommersiyalaşdırılması proqramında ekspert kimi fəaliyyət göstərir. Amerikan brendi olan "Engineering For Kids" şirkətinin Azərbaycan üzrə təmsilçisi olan STEM Təhsil Mərkəzinin təsisçisidir. Müxtəlif illərdə IJSO, ISEF və digər beynəlxalq elm yarışmalarında münsif olaraq iştirak edib. 2005-2011-ci illərdə BP Exploration LTD-də, 2012-ci ildən isə "Unimetal" MMC-də çalışıb.

# Dövlət Proqramı məzununun uğuru

## Aysel Əhədova Almaniyada nüfuzlu elmi mükafata layiq görülüb




Almaniyanın Heydelberq Universiteti xəstəxanasının tətbiqi biologiya kafedrasının doktorantı Aysel Əhədova xərçəng xəstəliklərinin tədqiqi sahəsində uğurlu nəticələrinə görə, 2020-ci il üzrə Anita və Fridrix Roitner mükafatına layiq görülüb.

Bu barədə Heydelberq Universitetinin yaydığı məlumatda bildirilir.

A.Əhədova hazırda Heydelberq Universiteti xəstəxanasının tətbiqi biologiya kafedrasında elmi tədqiqatlar aparır. 1994-2005-ci illərdə Bakı Avropa Liseyində təhsil alıb. 2011-ci ildə Azərbaycan Tibb Universitetini bitirib. DAAD-ın 3 illik təqaüdünü qazanaraq xərçəng tədqiqatı sahəsində işləmək arzusunu həyata keçirmək üçün Almaniyaya yollanıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2012-2015-ci illərdə Heydelberq Universitetinin tibb fakültəsində doktorantura (PhD) təhsili alıb, professor Knebel Deberitsin rəhbərliyi ilə doktorluq dissertasiyası üzərində işləyib.

O, fəlsəfə doktoru kimi mikrosputnik qeyri-sabit xərçəngin öyrənilməsi üzrə bir neçə layihədə iştirak edib və xərçəng hüceyrələrində qlükoza metabolizminə yönəlmiş yeni dərmanların, dərman kombinasiyalarının identifikasiyası üzrə tədqiqatlar aparıb.

Qeyd edək ki, 10000 avro təşkil edən mükafat Heydelberq Universitetinin fəxri senatoru, professor Fridrix Roytner və onun həyat yoldaşı Anita Roytner tərəfindən təsis olunub. Mükafat tibb fakültəsinin gənc alimlərinə xüsusilə klinik cəhətdən əhəmiyyətli tədqiqat layihələrinə görə təqdim olunur.

İstedadlı gənc alim A.Əhədova:

-Tədqiqatımın konkret mövzularından biri Linç sindromunun kanserogenezidir. Linç sindromu ilə əlaqəli xərçəngin molekulyar təbiətini müəyyənləşdirmək üçün xərçəng xəstələri üçün terapevtik və profilaktik variantları yaxşılaşdırmaq sahəsində çalışıram. Mənim vizyonum ölüm hallarını azaldan və xəstələrin həyat keyfiyyətini yaxşılaşdıran müalicə strategiyalarının hazırlanmasıdır.

A.Əhədovanın dünya şöhrətli Heydelberq Universitetinin alimləri ilə birgə apardığı elmi işinin nəticələri Almaniyada 1860-cı ildən çap edilən, hazırda tibb və cərrahiyyə sahəsində Avropanın ən nüfuzlu jurnallarından biri sayılan "Langenbecks Archive of Surgery" jurnalında dərc olunub. Onun 34-dən çox elmi məqaləsinə 300-dən artıq istinad edilib.

**Oruc MUSTAFAYEV**

# “İşğaldan azad edilmiş ərazilərdə gənclərin dayanıqlı və fərdi inkişafı” mövzusunda videokonfrans

Dekabrın 25-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşəbbüsü ilə “İşğaldan azad edilmiş ərazilərdə gənclərin dayanıqlı və fərdi inkişafı” mövzusunda videokonfrans keçirilib.

YAP Gənclər Birliyinin sədr müavini, Milli Məclisin deputatı Ramin Məmmədov ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, dayanıqlı inkişaf məqsədlərində, işğaldan azad edilmiş ərazilərin quruculuğunda gənclərin iştirakı vacib amildir.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov bildirib ki, hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərimizin bərpasıdır və bu prosesdə Azərbaycan gəncliyi də fəal iştirak etməlidir.

Milli Məclisin deputatı Nigar Arpadari vurğulayıb ki, işğaldan azad edilmiş rayonların zəngin resursları, yaradılacaq yeni infrastruktur həmin ərazilərdə yaşayan insanların, o cümlədən gənclərin rifahına öz müsbət təsirini göstərəcək.




Təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək bildirib ki, Azərbaycan xalqı bu gün çoxəsirlik tarixinin şərəfli mərhələsini yaşayır.

Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuzun Vətən Müharibəsində tarixi qələbəsi və 30 ilə yaxın Ermənistanın işğalı altında saxladığı əzəli torpaqlarımızın azad etməklə, milli çağdaş tarixinə şanlı səhifə yazdı. Bu misilsiz qələbə həm də məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpasına, dayanıqlı inkişaf məqsədlərinin ölkəmizin bütün ərazisində həyata keçirilməsinə əlverişli zəmin yaratmışdır.

Nazir müavini bu qələbə münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirib ki, işğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Hesab edirik ki, ilk növbədə bu istiqamətdə aşağıdakı tədbirlər həyata keçirilməlidir.

Ümumi məqsəd:

- İşğaldan azad olunmuş ərazilərdəki təhsil ehtiyaclarının müəyyənləşdirilməsi, mövcud təhsil infrastrukturunun vəziyyətinin qiymətləndirilməsi və fəaliyyətinin təşkili ilə bağlı planların hazırlanması;
- İşğaldan azad olunmuş ərazilərdə təhsil müəssisələrinin tikilməsi / bərpası (əhalinin sayına uyğun);
- İşğaldan azad olunmuş ərazilərdə məskunlaşacaq əhaliyə təhsil, səhiyyə, sosial və digər xidmətlərin göstərilməsi üzrə mütəxəssislərin fəaliyyətlərin stimullaşdırılması;
- İşğaldan azad olunmuş ərazilərdə məşğulluğun strukturu baxımından prioritet sahələr üzrə mövcud təhsil müəssisələrində mütəxəssislərin hazırlanması;
- Bölgələrin ənənəvi, coğrafi və s. xüsusiyyətlərinə uyğun xüsusi profilli təhsil müəssisələrinin (məktəbdənkənar, peşə, orta ixtisas, ali) və əlavə kursların yaradılması.

F.Qurbanov bildirib ki, işğaldan azad edilmiş ərazilərdə işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 təhsil müəssisəsi fəaliyyət göstərmişdir.

O əlavə edib ki, BMT-nin 17 dayanıqlı inkişaf məqsədindən 4-cü “Ədalətli, keyfiyyətli və hamını əhatə edən təhsilin təmin edilməsi, hamı üçün bütün ömrü boyu oxumaq imkanlarının dəstəklənməsi”dir.

Nazir müavini bu məqsədlə bağlı müəyyənləşdirilmiş hədəflər üzrə əldə edilmiş nailiyyətlər barədə məlumat verib.

Azərbaycanda təhsil sistemində aparılan islahatlar, həyata keçirilən tədbirlər nəticəsində 15 və yuxarı yaşda olan əhalinin savadlılıq səviyyəsi, ibtidai təhsilə nail olma səviyyəsi, ibtidai təhsili başa vurma səviyyəsi, təhsilini I sinifdən başlamaqla V sinifə qədər başa vurmuş şagirdlərin xüsusi çəkisi, demək olar ki, 100 faizə çatdırılmışdır.

Ölkəmizdə müsbət demoqrafik vəziyyət nəticəsində son illərdə I sinfə gələn şagirdlərin sayında əhəmiyyətli artım olmuşdur. Belə ki, 2013-cü ilə nisbətən 2020-ci ildə bu göstərici 16,6% artmışdır. Ümumilikdə şagird sayında da müsbət dinamika müşahidə edilmiş, 2013-cü ilə nisbətən bu göstərici 15.3% artmışdır.

Ölkəmiz TIMSS 2019 beynəlxalq qiymətləndirməsində iştirak etmişdir. Bu tədqiqatda IV sinif şagirdləri təmsil olunmuşdur. Tədqiqatın 8 dekabr 2020-ci il tarixində rəsmi elan olunmuş nəticələrinə əsasən, Azərbaycanın riyaziyyat üzrə göstəricisi 515, təbiət elmləri üzrə isə 427 bal olmuşdur. Riyaziyyat üzrə tədqiqat nəticələrinə əsasən, ölkəmiz tarixi nəticə əldə etmiş, şagirdlərimiz tədqiqatda iştirak edən 58 ölkə arasında 28-ci yerdə qərarlaşmış, regionda ən yüksək nəticə göstərən ölkə olmuşdur.

Tədrisdə İKT-dən istifadə və distant təhsil imkanlarının genişləndirilməsi baxımından bu günədək ölkə üzrə ümumilikdə 4140 təhsil müəssisəsi (bütün təhsil müəssisələrinin 93 faizi) internetə və Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) qoşulmuşdur.

2018-2019-cu tədris ilindən “Rəqəmsal bacarıqlar” layihəsinə başlanmışdır. Hazırda layihə 222 məktəbdə tətbiq edilir və 118 mindən çox şagirdi əhatə edir. Bu imkanlar işğaldan azad olunmuş ərazilərdə yaradılan təhsil müəssisələrində də həyata keçiriləcək.

Təməl bacarıqların uşaqlıq dövründən əldə edildiyi, uşaqların erkən yaş dövründən inkişaf etdirilməsinin vacibliyi nəzərə alınaraq dövlət büdcəsi vəsaiti hesabına 5 yaşlıların ümumtəhsil məktəblərində məktəbəhazırlığı son 5 ildə 20 faizdən 80 faizə çatdırılmışdır. Məktəbəqədər təhsil müəssisələri olmayan yaşayış məntəqələrində uşaqların məktəbəhazırlığı təmin edilmişdir.

UNICEF və Avropa Birliyinin maliyyə dəstəyi ilə 3-5 yaşlı uşaqların icma əsaslı məktəbəqədər təhsilə cəlb olunması layihəsi davam etdirilmişdir. Beynəlxalq təcrübəyə əsaslanan, 50 şəhər və rayonda 466 icma cəlb edilməklə həyata keçirilən bu layihənin əhatə etdiyi qrupların sayı artırılaraq 500-ə çatdırılmışdır. Bu layihənin tətbiqi Qarabağın rayonlarında da həyata keçirilməsi nəzərdə tutulur.

Ölkənin sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınaraq, hazırda peşə təhsili xüsusi diqqət yetirilən prioritet sahələrdən biridir. Bütün peşə təhsili müəssisələrində monitorinq aparılmış, beynəlxalq təcrübə əsasında rasionallaşdırma tədbirlərinə başlanmışdır. Peşə təhsili və təliminin inkişafı üzrə Strateji Yol Xəritəsinə uyğun olaraq bu istiqamətdə işlər növbəti illərdə də davam etdiriləcəkdir.

“Azərbaycanda peşə təhsilinin inkişafına Avropa İttifaqının dəstəyi” proqramı çərçivəsində 4 layihənin icrasına başlanmış, Koreya Hökuməti ilə birgə əməkdaşlıq çərçivəsində Bakı şəhərində müasir peşə təhsili mərkəzi yaradılmış və fəaliyyətə başlamışdır.

Nazir müavini qeyd edib ki, ali təhsilin qarşısında duran ən mühüm vəzifələrdən biri cəmiyyətin müasir inkişaf səviyyəsinə adekvat olan yüksək ixtisaslı, peşəkar, rəqabətqabiliyyətli kadrların hazırlanmasından ibarətdir. Bu baxımdan, “2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” xüsusi əhəmiyyət kəsb edir. Proqram çərçivəsində iki istiqamət üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Birinci istiqamət üzrə ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsi və yeni akademik mühitin yaradılması nəzərdə tutulmuşdu.

Beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsilə bağlı təsis edilməsi gözlənilən 5 beynəlxalq ikili diplom proqramlarından ilk 3 proqram artıq fəaliyyətə başlamış, 4-cü proqram üzrə danışıqlar davam edir.

İkinci istiqamət üzrə isə Dövlət Proqramı çərçivəsində 2020-ci ilin yaz semestri üçün xaricdə doktorantura təhsili üzrə 34 nəfər Azərbaycan vətəndaşı müvafiq proqram çərçivəsində 11 ölkənin 22 nüfuzlu ali təhsil müəssisəsində doktorantura səviyyəsində təhsil almaq hüququ qazanmışdır.

Koronavirus pandemiyasının təsirlərinin minimuma endirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin “Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə” 2020-ci il 13 aprel tarixli 138 nömrəli Qərarı ilə ali, orta ixtisas və peşə təhsili müəssisələri üzrə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan 30 mindən çox tələbənin təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilmişdir.

Bununla yanaşı, hər il ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan 17 mindən çox məcburi köçkün statusuna malik olan, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş şəxslərin uşaqları, əlil olan tələbənin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

İnsan hüquqları və azadlıqları, o cümlədən gender bərabərliyi təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi müəyyənləşdirilmişdir. “Təhsil haqqında” Qanunda “bərabərlik” təhsilin əsas prinsiplərindən biri kimi müəyyənləşdirilmiş, təsbit edilmişdir ki, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

F.Qurbanov diqqətə çatdırıb ki, bu gün ölkəmizdə ümumi təhsildə müəllimlərin 79%-ni, təhsil alanların isə 46%-ni qadınlar (qızlar) təşkil edir. Peşə təhsilində bu göstəricilər müvafiq olaraq 69 və 25%, orta ixtisas təhsilində 78 və 64%, ali təhsildə 54 və 50% təşkil edir.

Azərbaycanda qadınların elm sahəsində təmsilçiliyi də yüksək səviyyədədir. Belə ki, magistratura səviyyəsində təhsil alanların 54%-i, ali təhsil müəssisələrində çalışan fəlsəfə doktorlarının 51%-i, elmlər doktorlarının 46%-i qadınlardır. Hazırda doktorantların 56%-i qadınlardır.

Son illərdə təhsil müəssisələri rəhbərləri arasında qadınların çəkisi artmaqdadır. Belə ki, hazırda 6 rektor (13%), 37 prorektor (21%), 15 kollec direktoru (28%), 36 direktor müavini (31%), 11 peşə təhsili müəssisəsinin direktoru (13%), 40 direktor müavini (45%), 1244 ümumtəhsil məktəbinin direktoru (33%), 3965 direktor müavini (54%) qadınlardır.

Ölkə Prezidenti tərəfindən Azərbaycanda inklüziv təhsilin inkişafı üzrə 2018-2024-cü illəri əhatə edən Dövlət Proqramı təsdiq edilmiş və həyata keçirilməkdədir. Proqramın məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Təhsil Nazirliyinin UNICEF-lə birgə həyata keçirdiyi layihə çərçivəsində 4 pilot məktəbdə 66 sağlamlıq imkanları məhdud şagird inklüziv təhsilə cəlb olunmuşdur. İnklüziv təhsil fiziki, psixi, intellektual və digər fərqli xüsusiyyətlərindən asılı olmayaraq, şagirdlərə öz həmyaşıdları ilə eyni məktəbdə, eyni sinifdə təhsilə cəlb edilmək, eyni mühitdə böyümək, həyata və cəmiyyətə fəal inteqrasiya olunmaq imkanı yaradır.

Ümumi təhsil müəssisələrində tədris edilən ayrı-ayrı fənlər üzrə təhsilin məzmununda əksər dayanıqlı inkişaf məqsədləri və hədəfləri ilə bağlı standartlar müəyyənləşdirilmişdir. Belə ki, 17 məqsəd üzrə müəyyən edilmiş 169 hədəfdən 106-sı hazırda ümumi təhsil sistemində tətbiq edilən 176 standartda nəzərə alınmışdır. Həmin standartlar III-XI sinifləri və 10 fənni əhatə etmişdir.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda nəzərdə tutulduğu kimi, məzmun islahatları çərçivəsində Təhsil Nazirliyi tərəfindən “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” sənədi hazırlanmışdır. Sənəd hazırlanarkən Dayanıqlı İnkişaf Məqsədlərinin və hədəflərinin nəzərə alınması barədə İşçi qruplarına müvafiq tövsiyələr verilmiş və bu sənəd Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə təsdiq edilmişdir.

Təhsil Nazirliyi Dayanıqlı İnkişaf Məqsədlərinin tədrisi və maarifləndirmə işlərinin aparılması istiqamətində YUNESKO-nun Assosiativ məktəblər layihəsi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinin öyrənilməsini davam etdirmiş, məktəblərimiz “Dünyanın ən böyük dərsi” aksiyasına qoşulmuşdur. “Dünyanın ən böyük dərsi” üzrə artıq dərs nümunələri Azərbaycan dilinə tərcümə olunmuş və Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun (TİPİİ) internet səhifəsində yerləşdirilmişdir.

Nazir müavini əlavə edib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında magistratura səviyyəsində “Davamlı inkişafın idarə edilməsi” ixtisası üzrə kadr hazırlanır.

F.Qurbanov diqqətə çatdırıb ki, “COVID-19” pandemiyası ilə əlaqədar ümumi təhsil müəssisələrinin şagirdləri üçün 11 mart 2020-ci il tarixindən etibarən hər gün 5-6 saat “Mədəniyyət” və “ARB Günəş” telekanalları üzərindən “Dərs vaxtı” verilişi yayımlanıb, ümumi təhsil müəssisələrində təhsil alan 1,6 milyon şagird tədrisə cəlb olunub. “Dərs vaxtı” verilişinin yeni tədris ilində 2000-ci buraxılışı efirə gedib. Tədris ilinin sonuna kimi bu rəqəmin 6 minədək çatması gözlənilir. Cari ilin aprelin 2-dən Təhsil Nazirliyi tərəfindən “Virtual məktəb” layihəsinə start verilib. 2020-ci təqvim ilinin sonlarına doğru platformada qeydiyyatdan keçmiş şagirdlərin sayı 1380657, müəllimlərin sayı 127104, aktiv istifadəçi sayı 1039694, platformada keçilmiş dərslərin sayı 6 mln. 150 min təşkil edib.

Növbəti illərdə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə bağlı “Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyası”na uyğun olaraq işlər davam etdiriləcək. Strategiyanın məqsədi ölkəmizin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətini yüksəltməkdən ibarətdir.

Çıxışının sonunda F.Qurbanov əmin olduğunu bildirib ki, olduqca əhəmiyyətli mövzuya həsr olunan tədbirdə müzakirə edilən önəmli məsələlər, çıxışlarda səsləndirilən dəyərli fikirlər və irəli sürüləcək təkliflər tədbirin işinə öz töhfəsini verəcəkdir.

Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev isə deyib ki, gənclərimiz cəmiyyətimizin aparıcı qüvvəsi olaraq işğaldan azad edilmiş ərazilərimizin bərpasında da fəal iştirak edəcəklər. Eyni zamanda, həmin ərazilərimizdə yaşayışın bərpa olunması, həyatın canlanması gənclərin dayanıqlı və fərdi inkişafına əhəmiyyətli təsirini göstərəcək.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva da çıxış edərək işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri istiqamətində tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. O, bu istiqamətdə təmsil etdiyi qurumun üzərinə düşən vəzifələrdən bəhs edib, bu məqsədlə layihələrin nəzərdə tutulduğunu söyləyib.

Sonda videokonfrans iştirakçılarının sualları cavablandırılıb.

# 2020 Təqvim ili rəqəmlərdə

## Məktəbəqədər və ümumi təhsil



⇦ Əvvəli səh.1

*Heydər Əliyev Fondu tərəfindən 62 təhsil müəssisəsi istifadəyə verilib*

2020-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilib. 2020-ci ildə Təhsil Nazirliyi tərəfindən 94 təhsil müəssisəsi tikilib və əsaslı təmir edilib. Onlardan 27-də tikinti, bərpa-gücləndirmə, 7-də əsaslı təmir işləri görülüb, 60 modul tipli məktəb quraşdırılıb.

*339 adda 7233214 nüsxə dərslik və metodik vəsait*

2020-ci ildə ölkənin dövlət ümumi təhsil müəssisələrinin I-XI sinifləri üçün 339 adda 7233214 nüsxə dərslik və metodik vəsait çap edilib. 2020-2021-ci tədris ilindən bütün dövlət ümumi təhsil müəssisələrində yeni dərsliklər istifadəyə verilib. Dərsliklər sırasında I sinif "Azərbaycan dili (tədris dili)", I sinif "Riyaziyyat", I sinif "Azərbaycan dili (dövlət dili)" fənni üzrə dərsliklər yer alır. Yeni dərsliklər sırasında "Macmillan" Nəşriyyatının "İngilis dili" fənni üzrə 1-ci siniflər üçün hazırladığı "Happy Campers" dərsliyi də var. Yeni dərsliklərin hazırlanmasında dünya ölkələrinin kurikulumları araşdırılıb, beynəlxalq qiymətləndirmə tədqiqatları öyrənilib.

*Dərsliklərin təkmilləşdirilməsi üzrə Sinqapur şirkəti ilə əməkdaşlıq*

Təhsil Nazirliyi Sinqapurun təhsil sahəsindəki nailiyyətlərini nəzərə alaraq, bu ölkənin "Alston" Nəşriyyat Evi ilə uzunmüddətli əməkdaşlığa imza atıb. Məqsəd təcrübə mübadiləsi etmək, təbiət fənləri üzrə təhsil proqramlarını, habelə dərslik komplektlərini təkmilləşdirməkdir. Layihə Təhsil İnstitutu tərəfindən icra olunur.

*Teledərslərin yayımı həyata keçirilib*

"COVID-19" pandemiyası ilə əlaqədar ümumi təhsil müəssisələrinin şagirdləri üçün 11 mart 2020-ci il tarixindən etibarən şənbə və bazar günləri istisna olmaqla, hər gün 5-6 saat "Mədəniyyət" və "ARB Günəş" telekanalları üzərindən "Dərs vaxtı" verilişi yayımlanıb, ümumi təhsil müəssisələrində təhsil alan 1,6 milyon şagird tədrisə cəlb olunub. Həmçinin cari ilin 25 aprel tarixindən hər həftənin şənbə günləri məktəbdənkənar fəaliyyət üzrə "Dərsdən sonra" verilişinin yayımına start verilib.

*"Dərs vaxtı"nın 6000-ci buraxılışı efirə gedib*

Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Mədəniyyət" və "ARB Günəş" telekanallarında yayımlanan "Dərs vaxtı" verilişinin yeni tədris ilində 6000-ci buraxılışı efirə gedib. "Dərs vaxtı"na ekran qarşısında baxa bilməyənlər keçirilmiş dərsləri Təhsil Nazirliyinin rəsmi "Youtube" kanalı ilə yanaşı, "Dərs vaxtı"nın "Facebook" səhifəsindən, eyni zamanda videodərslər portalından da *(https://video.edu-.az/)* izləmək imkanı əldə ediblər.

*"Virtual məktəb" — Ən iri milli platforma*

Aprelin 2-dən Təhsil Nazirliyi tərəfindən "Virtual məktəb" layihəsinə start verilib. 2020-ci təqvim ilinin sonlarına doğru platformada qeydiyyatdan keçmiş şagirdlərin sayı 1 426 721, müəllimlərin sayı 127 550, aktiv istifadəçi sayı 1 123 126 təşkil edib.

*"Virtual məktəb"lə bağlı 146-4 "Qaynar xətt" xidməti*

Təhsil Nazirliyi tərəfindən "Virtual məktəb" layihəsi ilə bağlı 146-4 "Qaynar xətt" xidməti istifadəyə verilib. Əsas məqsəd "Virtual məktəb"lə bağlı vətəndaşlara xidmət göstərilməsi, daxil olan vətəndaş müraciətlərinin qısa zamanda emalı və vətəndaş məmnuniyyətinin təmin edilməsidir.

*Beynəlxalq fənn olimpiadalarında yüksək nəticə*

2020-ci ildə Azərbaycan məktəbliləri ümumilikdə 19 müxtəlif beynəlxalq olimpiada və müsabiqələrdə iştirak edərək 6 qızıl, 16 gümüş, 41 bürünc medal və 15 həvəsləndirici mükafat olmaqla ümumilikdə 63 medal əldə ediblər.

*Azərbaycan təhsil platforması YUNESKO-nun rəsmi siyahısında*

Pandemiya dövründə Azərbaycanda tətbiq edilən təhsil platforması YUNESKO-nun rəsmi saytında təqdim edilən siyahıda yer alıb. Dünyada "COVID-19" pandemiyasının yayılması ilə əlaqədar YUNESKO-nun rəsmi saytında şagirdlərin öyrənmə prosesini asanlaşdırmaq məqsədilə distant təhsil platformaları, elektron portallar və təlim tətbiqlərinin siyahısı təqdim edilib. Ölkəmizdə tətbiq edilən hesablama təfəkkürü və riyazi bacarıqların inkişafına xidmət edən "Polyup" platforması da bu siyahıya daxil edilib.

*"Məktəblinin dostu"nun əhatə dairəsi genişləndirilib*

2020-ci ildə "Məktəblinin dostu" layihəsinin əhatə dairəsi genişləndirilib. Hazırda layihə Bakı şəhəri üzrə 186, Abşeronda 20, Sumqayıtda 20 təhsil müəssisəsində olmaqla ümumilikdə 226 müəssisədə fəaliyyət göstərir. Layihə üzrə hazırda 400 əməkdaş çalışır. Layihə ümumilikdə 400 minə yaxın şagirdi əhatə edir.

*"Rəqəmsal bacarıqlar" layihəsinin tətbiqi genişləndirilib*

Təhsil Nazirliyinin "İnformatika" fənninin yeni formatda tədrisi üzrə "Rəqəmsal bacarıqlar" layihəsinin tətbiqi uğurla davam etdirilib. Layihə hazırda Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Biləsuvar, Şamaxı, Lənkəran, Şirvan, Şəki şəhər və rayonları üzrə 222 məktəbi və 100 mindən çox şagirdi əhatə edir.

*1035 müəllim müddətsiz əmək müqaviləsi ilə təyin olunmaq hüququ qazanıb*

Ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş müsabiqə əsasında müddətli müqavilə ilə işə qəbul olunmuş müəllimlərin daimi əsaslarla işə qəbul edilməsi üçün elektron müsabiqə və onlayn müsahibələr təşkil edilib. Müsahibələrdə iştirak etmiş 1228 namizəddən 1035 nəfəri uğur qazanaraq müddətli müqavilə əsasında çalışdıqları məktəbə 2020-2021-ci tədris ilindən etibarən müddətsiz əmək müqaviləsi ilə təyin olunmaq hüququ qazanıb.

*1565 müəllim iş yerini dəyişib*

Təhsil Nazirliyi sisteminə daxil olan dövlət ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsinin nəticələrinə əsasən, 1565 nəfərin iş yerinin dəyişdirilməsinə razılıq verilib.

*Müəllimlər üçün təlimlər*

Pandemiya dövründə müəllimlərin ixtisasının artırılması, məzmunun uyğunlaşdırılması, təhsilalanların motivasiyasının artırılması istiqamətində "Virtual məktəb" layihəsi çərçivəsində 25 min müəllim üçün onlayn təlimlər təşkil edilib.

*52 nəfər direktor vəzifəsinə təyin edilib*

2019-cu ilin iyul ayında elan edilmiş dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin növbəti yerləşdirmə mərhələsinin nəticələrinə əsasən, uğur qazanmış və ehtiyat kadr siyahısında olan daha 52 nəfər direktor vəzifəsinə təyin edilib. Bununla da, 2020-2021-ci illərdə müsabiqədə uğur qazanaraq direktor vəzifəsinə təyin olunan şəxslərin sayı 433 nəfərə çatıb.

*Məktəbdənkənar fəaliyyət*

Pandemiya dövründə Təhsil Nazirliyi tərəfindən məktəbdənkənar təhsil müəssisələrinin qrup və dərnəklərinə cəlb edilən məktəblilər üçün dərs cədvəlinə uyğun olaraq start verilən onlayn dərslərdə 27 idman növü və 103 dərnək üzrə 25 min nəfərə yaxın qrup və dərnək üzvü, 1500-dən çox müəllim iştirak edib.

*Şagirdlərimiz ABŞ-ın nüfuzlu ISEF müsabiqəsinin finalçıları olublar*

"Sabahın alimləri" IX Respublika müsabiqəsinin qalibləri sırasından seçilmiş şagirdlərimiz onlayn şəkildə keçirilən Beynəlxalq Elm və Mühəndislik Sərgisində (İSEF — İnternational Science and Engineering Fair) müvəffəqiyyət əldə ediblər.

*Şagirdlərimizin TIMSS 2019 nəticələri*

Azərbaycanlı şagirdlər TIMSS 2019 — Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirməsində riyaziyyat üzrə uğurlu nəticələr əldə edib. Şagirdlərimiz 515 balla bu istiqamətdə tədqiqatda iştirak edən 58 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Bu nəticə ilə Azərbaycan regionda ən yüksək nəticə göstərən ölkə sayılır.

*IV qrant müsabiqəsinin qalibləri*

Təhsil Nazirliyi tərəfindən təhsildə inkişaf və innovasiyalar üzrə IV qrant müsabiqəsi keçirilib. Təşkilat Komitəsi Ekspert Qrupunun rəyi əsasında ümumi təhsil müəssisələri kateqoriyası üzrə 47, fərdi kateqoriya üzrə 136 layihə barədə müsbət qərar qəbul edilib. Müsbət qərar verilən 183 layihənin maliyyələşdirilməsi Təhsil Nazirliyi tərəfindən təsdiqlənib.

*Yeni təmayüllü liseylər*

2020-2021-ci tədris ilindən Gəncə, Şirvan, Şəki şəhərləri, Quba və Şəmkir rayonlarında 5 yeni lisey fəaliyyətə başlayıb. Belə ki, Gəncə şəhəri və Quba rayonunda Fizika, riyaziyyat və informatika təmayüllü, Şirvan, Şəki şəhərləri və Şəmkir rayonunda isə Kimya-biologiya təmayüllü Respublika liseyi təşkil olunub.

*"Qarabağın məşhur müəllimləri" layihəsi*

Təhsil Nazirliyi "Qarabağın məşhur müəllimləri" adlı yeni layihəyə start verib. Layihə çərçivəsində Qarabağda doğulan və vaxtilə pedaqoji fəaliyyətlə məşğul olan tanınmış şəxslər barədə məlumatlar təqdim olunub.

## Peşə təhsili

*Peşə təhsili müəssisələrinə qəbul*

2020-2021-ci tədris ilində 120 ixtisas üzrə peşə təhsili müəssisələrinə qəbul aparılıb. 14 mindən çox şəxs peşə təhsili müəssisələrinə qəbul olunub. Ötən il ilə müqayisədə peşə təhsili almaq istəyən şəxslərin sayında 27 faiz artım müşahidə olunub.

*İlk dəfə olaraq peşə təhsil müəssisələrinə qəbul elektron qaydada aparılıb*

2020-2021-ci tədris ili üzrə peşə təhsili müəssisələrinə qəbul ilk dəfə olaraq elektron qaydada iki mərhələli şəkildə aparılıb. Elektron müraciətlər *http://qebul.vet.edu.az* saytı üzərindən ünvanlanıb.

*Britaniyanın Plimut İncəsənət kolleci ilə əməkdaşlığa başlanılıb*

Britaniya Şurası Peşə Təhsili üzrə Dövlət Agentliyinin də benefisiarı olduğu "Crafting Future" adlı regional proqrama başlayıb. Proqram tətbiqi sənət, sənətkarlığın dəstəklənməsi, eləcə də inkişafına istiqamətlənmiş aktual tədqiqat və maarifləndirmə təşəbbüslərini özündə ehtiva edir.

*Peşə ixtisası üzrə dərsliklər artıq elektron formatda*

Peşə ixtisasları üzrə dərsliklər *e-derslik.edu.az* portalında elektron formatda yerləşdirilib. 39 ixtisas üzrə 193 dərsliyin yer aldığı platformada tədris vəsaitlərini onlayn oxumaq və yükləmək imkanı yaradılıb.

*Peşə sahəsi üzrə teledərslər*

Pandemiya dövründə peşə təhsili və təlimi sistemində təhsilalanların tədris prosesində iştirakını təmin etmək üçün "Mədəniyyət" və "ARB Günəş" telekanallarında həftədə iki dəfə olmaqla teledərslər yayımlanıb. Bu təşəbbüslərlə yanaşı, Peşə Təhsili üzrə Dövlət Agentliyi öyrənmə nəticələrinin qiymətləndirilməsi vasitələrinin hazırlanmasına və seçilmiş peşələr üzrə tam onlayn mənbələrin (video dərslər və mətnlər daxil olmaqla) tərcüməsinə də başlayıb.

*Peşə sahəsində onlayn karyera təlimləri*

Peşə təhsili müəssisələrinin tələbələri üçün karyera üzrə onlayn təlim sessiyaları təşkil edilib. Onlayn təlim sessiyalarında Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin 100-dən çox tələbəsi ilə yanaşı, müəllimləri də iştirak edib. Karyera təlim proqramının davamlılığı nəzərdə tutulur.

*Azərbaycanın "World Skills International" və "World Skills Asia" təşkilatlarına üzvlüyü təsdiq edilib*

"World Skills International" (WSI) təşkilatının Ümumi yığıncağında Azərbaycanın WSI təşkilatına 85-ci üzv kimi qəbul edilməsi təsdiq olunub. "World Skills International" dünyada peşə bacarıqlarını təbliğ edən və peşələrin olimpiadası kimi tanınan beynəlxalq bir təşkilatdır.

⇨Ardı səh.11

# Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyinə həsr olunan videokonfrans

Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyası və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə dekabrın 25-də "Azərbaycanın ədəbi, mədəni və ictimai-siyasi həyatının fədaisi: Əbdürrəhim bəy Haqverdiyev - 150" mövzusunda videokonfrans keçirilib.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Milli Komissiyanın baş katibi Elnur Sultanov Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin YUNESKO tərəfindən 2020-2021-ci illər üzrə görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileylərinin qeyd olunması siyahısına daxil edildiyini bildirib.

Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov Mədəniyyət Nazirliyi tərəfindən Şuşada erməni vandalizminin qurbanı olmuş digər tarixi-mədəni irs nümunələrimiz, abidələrlə birlikdə görkəmli ədibin evinin də bərpa ediləcəyini və orada yazıçının ev-muzeyinin yaradılacağını bildirib. 2021-ci ildə nazirlik tərəfindən ədibə həsr olunan sənədli filmin ictimaiyyətə təqdim olunacağını da diqqətə çatdırıb.

Sonra Haqverdiyevin Şuşadakı evinin qalıqlarını əks etdirən videogörüntü nümayiş olunub.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığında maarif, elm və mədəniyyət məsələlərinin xüsusi yer tutduğunu diqqətə çatdırıb. Bildirib ki, ədib daha çox publisistik yazılarında dövrün bu problemlərinə toxunub. İstər müəllimlik fəaliyyəti, istərsə də ictimai vəzifələrdə olarkən ədib maarifin, elmin və mədəniyyətin inkişafına öz töhfələrini verib.




Təhsil Nazirliyinin "Qarabağın məşhur müəllimləri" layihəsi barədə söz açan Firudin Qurbanov məlumat verib ki, layihə çərçivəsində Əbdürrəhim bəy Haqverdiyev haqqında məlumatlandırma aparılıb. 18 dekabr 2020-ci il tarixində Misirin "Aldiplomasy" informasiya portalında nazirliyin bu layihəsi çərçivəsində Əbdürrəhim bəy Haqverdiyevə həsr olunmuş məqalə yayılıb. Eləcə də, "Avto FM" radiosunda "Qarabağın məşhur müəllimləri" layihəsi çərçivəsində Əbdürrəhim bəy Haqverdiyev haqqında məlumatlar təqdim edilib. Nazir müavini, "Azərbaycan müəllimi" qəzetində Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyi ilə əlaqədar keçirilmiş onlayn konfranslara dair yazıların dərc edildiyini, ümumi təhsil müəssisələrində ədibin yubileyinə həsr olunmuş "açıq dərs"lər, "dəyirmi masa"ların keçirildiyini, rəsm, foto sərgilərinin təşkil edildiyini, ali təhsil müəssisələrində çalışan alimlərin ədibə həsr olunmuş məqalələr dərc etdiyini və nazirlik tərəfindən görülən digər işləri xatırladıb. Əlavə edib ki, cari ilin dekabr ayında Təhsil Nazirliyi Gənclərin Respublika Bədii Yaradıcılıq Evi tərəfindən Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi münasibətilə "Keçmiş günlər" adlı yaradıcılıq müsabiqəsinə start verilib və hazırda müsabiqə davam edir.

Nazir müavini çıxışında Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanın görkəmli şəxsiyyətlərinin, o cümlədən mütəfəkkirlərinin yubileylərinin YUNESKO çərçivəsində qeyd edilməsi istiqamətində əhəmiyyətli işlər görüldüyünü vurğulayıb.

Sonda çıxış edən AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev, Azərbaycan Yazıçılar Birliyinin (AYB) Ədəbi Əlaqələr və Tərcümə Mərkəzinin rəhbəri Səlim Babullaoğlu öz fikirlərini bölüşüb, ədibin diplomat kimi fəaliyyəti barədə söz açılıb. Diqqətə çatdırılıb ki, yazıçının Sankt-Peterburqda yaşadığı ev aşkarlanıb və hazırda Rusiyadakı səfirliyimiz həmin binaya xatirə lövhəsinin vurulması ilə bağlı iş aparır.

# Gənclər siyasətinin ən uğurlu modellərindən biri könüllülük hərəkatının yaranmasıdır

## "Könüllülər ili"nə həsr olunmuş hesabat konfransı keçirilib

Dekabrın 29-da "Könüllülər ili" adlı hesabat konfransı keçirilib.

COVID-19 pandemiyası şəraitinə uyğun olaraq videokonfrans formatında təşkil olunan tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

"Könüllülər ili" hesabat konfransında Təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək qeyd edib ki, bu gün dünya azərbaycanlıları təsvirəgəlməz qürur və sevinc hissləri keçirir.

2020-ci il sentyabrın 27-dən Ali Baş Komandanın rəhbərliyi ilə bizim müzəffər ordumuz öz müqəddəs dəyərləri - Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə qalib gəldi!

İllər boyu davam etmiş kədər, həsrət, facięli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!

F.Qurbanov xüsusi vurğulayıb ki, gənclər siyasətinin ən uğurlu modellərindən biri ölkəmizdə könüllülük hərəkatının yaranmasıdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycan Respublikasında 2020-ci ili "Könüllülər ili" elan edilmişdi. Bu qərar ölkəmizdə könüllülük hərəkatına xüsusi önəm verdi. Ölkəmizdə könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir.

Qeyd edilməlidir ki, könüllülük hərəkatı təhsil sisteminə müsbət təsir göstərir. Tələbələrin bu hərəkata cəlb olunması onlarda aktiv həyat mövqeyi, onların vərdiş və bacarıqlarını inkişaf etdirir, biliklərini artırır, vətənpərvərlik ruhunu gücləndirir.

2015-ci il dekabrın 14-də Azərbaycan Tələbə Könüllülərinin I Forumunda Təhsil Nazirliyi tərəfindən "BİR" Tələbə-Könüllü Proqramı təqdim edilmişdir. Bu hərəkatla tələbə-gənclərin həyat və fəaliyyətində yeni bir mərhələ başlanmışdır. Proqram 6 müxtəlif istiqaməti özündə ehtiva edir: Öyrən, Öyrət, Yaşa, Yaşat, Kəşf Et və Zövq Al. Bu istiqamətlər üzrə həyata keçirilən tədbirlər tələbə-könüllülərin müxtəlif sahələrdə təcrübə qazanmasına və karyera inkişafına, bilik və bacarıqlarının artırılmasına, tələbə həyatını rəngarəng yaşamasına, asudə vaxtın səmərəli təşkilinə, könüllülük mədəniyyətinin cəmiyyətə aşılanmasına şərait yaradır.

Proqram 20 mindən çox tələbəni əhatə edir. Tələbələrin şəxsi inkişafı və asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün göstərilən 6 istiqamətdə fəaliyyət göstərən proqram tərəfindən indiyədək yüzlərlə yerli və beynəlxalq tədbirə təşkilati dəstək verilib.

Ölkə Prezidenti cənab İlham Əliyev gənclər qarşısında mühüm vəzifələr qoyaraq xüsusi vurğulamışdır ki, gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə olunmalı, yaxşı oxumalı, bilikli, savadlı olmalı, ölkənin tarixini yaxşı bilməli, anti-Azərbaycan dairələrinin təsiri altına düşməməlidirlər.

Hesab edirəm ki, bu vəzifələr fəaliyyətimizin əsas istiqaməti olmaqla yanaşı, bütün gənclərin, o cümlədən könüllülərin həyat kredosuna çevrilməlidir. Çünki ölkəmizin gələcəyi, ilk növbədə, Siz gənclərlə bağlıdır.

Nazir müavini qeyd edib ki, yeni çağırışlar, ilk növbədə, postindustrial cəmiyyətin yaranması, müasir informasiya və rəqəmsal texnologiyaların, süni intellektin geniş tətbiqi ilə bağlıdır. Bu, yalnız tələbə-könüllülər deyil, bütün gənclər qlobal çağırışlara adekvat fəaliyyət sahələri seçməyə, yüksək peşəkarlığa malik, rəqabətə davamlı mütəxəssis kimi yetişməyə, innovativ və yaradıcı fəaliyyətə səfərbər etməlidir.

Bununla bağlı qeyd edilməlidir ki, belə çağırışlardan biri pandemiya ilə bağlıdır və könüllülər bu dövrdə aktiv fəaliyyət göstərirlər. 100-dən çox BİR Könüllülər "Bir-birimizi qoruyaq!" kampaniyası çərçivəsində koronavirus (COVID-19) pandemiyasının davam etdiyi dövrdə müxtəlif istiqamətlər üzrə cəmiyyətimizin sağlamlığı naminə fəaliyyət göstəriblər. Eyni zamanda, müxtəlif müddətlərdə keçirilən "Könüllü Donor", "Könüllü Qonşu", "Gələcəyimizi Qoruyaq!" aksiyalarında 100-lərlə BİR Könüllülər fəal iştirak edərək pandemiya dövründə əhalinin maarifləndirilməsi istiqamətində görülən işlərə töhfə vermişlər.

F.Qurbanov vurğulayıb ki, gənclərimizin ən böyük sınağı vətən müharibəsi idi. Böyük Vətən Müharibəsi dövründə Azərbaycan könüllüləri fəal iştirak etmiş, cəbhə ilə yanaşı informasiya müharibəsində də düşmənə layiqli cavab vermişlər. Bu dövr ərzində düşmən mediasının yaydığı dezinformasiyaların qarşısını almaq, dünyaya Dağlıq Qarabağ həqiqətlərini çatdırmaq məqsədilə "ASAN Könüllüləri" Təşkilatı və "Aqrar İnkişaf Könüllüləri" Təşkilatının təşəbbüsü və Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi ilə "Mətbuat Səngəri" layihəsi keçirilmişdir. Ümumilikdə, layihə çərçivəsində 1000-dən çox könüllünün aktiv iştirakı ilə 100 mindən çox faktlara əsaslanan paylaşımların təşkili, təxribat xarakterli paylaşımların şərh bölməsində həqiqətləri əks etdirən şərhlərin hazırlanması, emal olunan mətnlərin hazırlanması və marafonların keçirilməsinə 350-yə yaxın "BİR" tələbə-könüllü tərəfindən də töhfə verilmişdir.

Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən edilən hücumlar nəticəsində zərər çəkmiş vətəndaşlarımıza mənəvi və maddi dəstək olmaq məqsədilə Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşəbbüsü ilə "Birlikdə dəstək" adlı humanitar aksiya keçirilmişdir. Ümumilikdə, Bərdə və Ağcabədi rayonlarında yaşayan 324 ailənin ərzaq və qeyri-ərzaq məhsulları ilə təmin edilməsinə Azərbaycan könüllüləri tərəfindən aktiv şəkildə dəstək göstərilmişdir. Bununla yanaşı, aksiya çərçivəsində Azərbaycan Könüllüləri tərəfindən sığınacaqlarda qalan 200-dən çox uşağa psixoloji dəstək olmaq məqsədilə görüşlər təşkil edilmişdir.

Qeyd edilməlidir ki, cari il ərzində pandemiya və müharibə dövründə, sosial və ekoloji sahələrdə fəal könüllülük fəaliyyətinə görə 5 dekabr Beynəlxalq Könüllülər Günü ərəfəsində "İlin könüllüsü" nominasiyası üzrə mükafatlandırılan fəal könüllülər arasında "Bir" Tələbə-könüllüləri də yer almışdılar.

Daha sonra çıxış edən gənclər və idman naziri müavini İntiqam Babayev, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, millət vəkili Şahin Seyidzadə və konfransda iştirak edən könüllülər çıxış ediblər.

Konfransda könüllülər ili ərzində görülmüş işlərə dair videoçarx da nümayiş olunub.

# 2020 Təqvim ili rəqəmlərdə

⇦ Əvvəli səh.9

*Peşə təhsili müəssisəsində tibbi maska istehsalı*

Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi “Save Tekstil” MMC ilə birgə tibbi maska istehsalına başlayıb. İstehsal müəssisəsinə müvafiq ixtisaslar üzrə təhsil alan 20-yə yaxın Peşə Təhsil Mərkəzinin məzunu cəlb edilib.

*Peşə təhsili sahəsində Avropa İttifaqı ilə yeni layihə*

Avropa İttifaqı, BMT-nin İnkişaf Proqramı və Təhsil Nazirliyi Azərbaycanda peşə təhsili və təlimi sistemində keyfiyyətli kadr hazırlığına dəstək və bu təhsil pilləsinin nüfuzunun artırılması məqsədilə yeni layihəyə başlayıb.

*Yüksək texniki peşə təhsili səviyyəsinin tədrisinə başlanılıb*

2020-ci tədris ilindən etibarən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində 2 ixtisas üzrə yüksək texniki peşə - subbakalavr səviyyəsi üzrə tədrisə başlanılıb. Təhsil müddəti 3 il olan bu tədris proqramları üzrə təhsil alan tələbələr subbakalavr peşə-ixtisas dərəcəsi alacaq və müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq hüququ əldə edəcəklər.

*Müəllimlərin işə qəbulu elektron qaydada təşkil olunub*

İlk dəfə olaraq, peşə təhsili müəssisələrinə müəllimlərin işə qəbulu elektron qaydada *https://portal.edu.az* elektron müraciət portalı üzərindən baş tutub. Qəbul ümumtəhsil fənn müəllimi, ixtisas fənn müəllimi və istehsalat təlimi ustası vakansiyaları üzrə aparılıb.

*4 Peşə Təhsil Mərkəzi publik hüquqi şəxs statusu qazanıb*

2020-ci il ərzində 4 peşə təhsil müəssisəsi publik hüquqi şəxs statusu qazanıb. Publik hüquqi şəxs statusu əldə edən müəssisələr arasında “Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi”, “Texnika və Texnologiylar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi”, “Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi” və “Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Mərkəzi” yer alıb.

## Ali təhsil və elm

*102 tələbə Prezident təqaüdünə layiq görülüb*

2020-2021-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və yerli ali təhsil müəssisələrinə daxil olmuş 102 tələbə Prezident təqaüdünə layiq görülüb.

*Xaricdə doktorantura proqramı*

“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Azərbaycanın sosial iqtisadi inkişafı üzrə müəyyən olunmuş prioritet ixtisas sahələri üzrə ildə 2 dəfə proqrama sənəd qəbulu həyata keçirilir. 2019-cu ilin noyabr ayında keçirilən ilk qəbuldan 34 doktorant, 2020-ci ilin iyun ayında baş tutan ikinci qəbuldan isə 23 doktorant prioritet ixtisas istiqamətləri üzrə dövlət hesabına dünyanın 500 ən



yaxşı universiteti siyahısında olan aparıcı elm mərkəzlərində təhsil almaq hüququ qazanıb.

*İkili diplom proqramları haqqında*

“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində 3 beynəlxalq ikili diplom proqramı təsis olunub. Hazırda ABŞ-ın Corc Vaşinqton Universiteti (CVU) ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Təhsil ixtisası” istiqaməti üzrə magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramı (hazırda təhsil alan tələbə sayı-25), ABŞ-ın Corc Vaşinqton Universiteti (CVU) ilə ADA Universitetinin “Kompüter elmləri və verilənlərin təhlili” ixtisası istiqaməti üzrə magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramı (hazırda təhsil alan tələbə sayı-20), Koreya Respublikasının İnha Universiteti ilə Bakı Mühəndislik Universitetinin mühəndislik ixtisasları istiqaməti üzrə bakalavriat səviyyəsində beynəlxalq ikili diplom proqramı (hazırda təhsil alan tələbə sayı-96) həyata keçirilməkdədir.

Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universitetinin “aqrar elmlər” ixtisasları istiqaməti üzrə bakalavriat səviyyəsində beynəlxalq ikili diplom proqramının təsis olunması istiqamətində danışıqlar davam edir.

*Hökumətlərarası Təqaüd Proqramlarına dair internet səhifəsi istifadəyə verilib*

Hökumətlərarası Təqaüd Proqramlarına (HTP) dair internet səhifəsi *(http://htp.edu.az)* istifadəyə verilib. Məqsəd ictimaiyyətin HTP çərçivəsində müxtəlif ölkələr üzrə təhsilin müxtəlif səviyyələrində təqaüd proqramları ilə bağlı düzgün və mütəmadi məlumatlandırılmasını təmin etməkdir.

*232 nəfər xaricdə təhsil almaq hüququ qazanıb*

2020-2021-ci tədris ilində Hökumətlərarası Təqaüd proqramları çərçivəsində Macarıstanda 193, Çində 20, Rumıniyada 5, Rusiya Federasiyasında 3, Latviyada 8, Qazaxıstanda 3, ümumilikdə isə 232 nəfər xaricdə təhsil almaq hüququ qazanıb.

*89 ölkədən 6500-ə yaxın əcnəbi tələbə*

2020-2021-ci tədris ili üzrə Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrində 89 ölkədən 6500-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan şəxs təhsil alır. Tələbələr əsasən Türkiyə, İran, Gürcüstan, Rusiya, İraq, Nigeriya, Türkmənistan, Hindistan, Pakistan və digər ölkələri təmsil edir.

*Həssas qruplardan olan tələbələrə dəstək*

Pandemiya dövründə Nazirlər Kabinetinin “Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə” qərarı qəbul edilib. Qərar 30 mindən artıq tələbəni əhatə edib. Qərarın icrası üçün dövlət büdcəsindən 40 milyon manat maliyyə vəsaiti ayrılıb.

*Tələbələr üçün yeni onlayn imkan*

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi sistemi - *http://e-telebe.edu.az* portalı istifadəyə verilib.

*15900 tələbənin təhsil haqqı xərcləri dövlət tərəfindən ödənilib*

2020-2021-ci tədris ili üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi məqsədi ilə sosial həssas əhali qrupuna aid edilən 24 147 tələbə *e-telebe-.edu.az* portalına müraciət edib. Onlardan 15900 nəfərin ödənişi ali təhsil müəssisələrinə artıq ödənilib.

*Tələbələrin köçürülməsinin nəticələri*

2020-ci ildə tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə və təhsilalma formasının dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində təhsilalanların köçürülməsi həyata keçirilib. *Transfer.edu.az* portalı vasitəsilə ali təhsil üzrə 2625, orta ixtisas təhsili üzrə 423 nəfər olmaqla 3048 tələbənin müraciəti təmin olunub.

*Tələbələr üçün distant təhsil imkanı*

Pandemiya dövründə təhsil proqramlarının mənimsənilməsinin təmin edilməsi məqsədilə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, ali və orta ixtisas təhsili müəssisələrində müxtəlif onlayn platformalar üzərindən dərslərin təşkilinə başlanılıb. Həmin dərslərə 100 mindən artıq tələbə və professor-müəllim heyəti qoşulub. Həmçinin onlayn dərslərə qoşulmaq üçün lazımi şəraiti olmayan müəllim və tələbələrin faydalanmaları üçün 17 region üzrə 28 məktəbdə internet-kompüter mərkəzləri yaradılıb.

*Magistraturaya qəbulda dəyişiklik*

Nazirlər Kabineti “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul Qaydaları”nda dəyişiklik edib. Dəyişikliyə əsasən, magistraturaya qəbul imtahanı yalnız bir mərhələli olacaq. İmtahan Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada bakalavrların ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürünün), informatika və xarici dil biliklərinin qiymətləndirilməsi üzrə keçirilir.

*805 nəfər SABAH tələbəsi adını qazanıb*

2020-2021-ci tədris ili üzrə ölkənin 10 baza ali təhsil müəssisəsinin SABAH qruplarına tələbə seçimi aparılıb. Dövlət İmtahan Mərkəzi tərəfindən avqust ayında pandemiya şəraitinin tələblərinə uyğun keçirilmiş müsabiqənin nəticələrinə əsasən, 805 tələbə 29 ixtisas üzrə SABAH tələbəsi adını qazanıb. 2020-ci ildə 832 SABAH tələbəsi məzun olub.

*UFAZ-da magistratura proqramının təqdimatı olub*

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində (UFAZ) 2020-2021-ci tədris ilindən etibarən magistratura proqramı fəaliyyətə başlayıb. Cari ildə sözügedən magistratura proqramına 80 tələbə qəbul olub. 2020-ci ildə UFAZ-ın 125 tələbəsi məzun olub.

*Qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması*

İlk dəfə olaraq qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması üzrə sertifikatlar təqdim olunub. Bu proses nəticə olaraq özünütəhsil yolu ilə biliklərə yiyələnmiş (informal təhsil) və müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə təlim keçmiş (qeyri-formal təhsil) vətəndaşlarımıza təhsillərini davam etdirmək (peşə təhsili pilləsinin növbəti səviyyəsində) və ya ixtisasları üzrə əmək fəaliyyətinə başlamaq hüququnun verilməsinə xidmət edəcək.

*Xarici ali təhsil sahəsində ixtisasların tanınması və nostrifikasiyası qaydalarında dəyişiklik*

Nazirlər Kabinetinin 2020-ci il 21 sentyabr tarixli müvafiq Qərarı ilə “Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları”nda dəyişiklik edilib. Dəyişikliyə əsasən, xarici dövlətlərdə verilən təhsil haqqında sənədlərin tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) sahəsində göstərilən xidmətlərə görə dövlət rüsumunun ödənilməsi ləğv olunub və Nazirlər Kabineti tərəfindən müəyyən edilməli olan məbləğdə xidmət haqqı ilə əvəzlənib.

*Azərbaycanın 2 universiteti dünya reytinqində*

Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan “Times Higher Education” (THE) 2020-ci il üçün BMT-nin “Dayanıqlı İnkişaf Məqsədləri”nə (SDG) əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyən edən “THE University Impact Rankings 2020” reytinq cədvəlini açıqlayıb. Dünya universitetlərinin fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının 17 Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə ölçən bu reytinqdə Azərbaycanın 2 ali təhsil müəssisəsi də yer alıb. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Xəzər Universiteti 601+ aralığında qərarlaşıblar.

*Niderlandın “Elsevier” korporasiyası arasında Niyyət Protokolu imzalanıb*

Təhsil Nazirliyi ilə dünyanın aparıcı elmi-analitika şirkəti olan Niderlandın “Elsevier” korporasiyası arasında Niyyət Protokolu imzalanıb. Protokolun imzalanmasında əsas məqsəd Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq elmi məlumat bazalarına çıxışının genişləndirilməsi, beynəlxalq elmi nəşrlərin sayının artırılması, nəşr olunan elmi məqalə və jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılmasıdır.

*Azərbaycanın 3 şəhəri YUNESKO-nun təhsil şəbəkəsində*

Azərbaycanın 3 şəhəri — Bakı, Gəncə və Qəbələ YUNESKO-nun həyatboyu təhsil sahəsində aparıcı qurumu olan Öyrənən Şəhərlər üzrə Qlobal Şəbəkəyə üzv seçilib. Şəhərlərimizin qeyd olunan şəbəkəyə üzv olmaq prosesi YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının Daimi Katibliyinin təşəbbüsü və təşkilatçılığı, Təhsil Nazirliyinin dəstəyi, YUNESKO yanında Daimi Nümayəndəliyimiz və aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə həyata keçirilib.

*Web of Science elmi bazasında 953 məqalə qeydə alınıb*

“Clarivate Analytics” şirkəti ilə əməkdaşlıq çərçivəsində 2020-ci ildə də alimlərimizin publikasiya fəallığı qorunub. 2020-ci il üzrə də ilkin olaraq bazaya yerləşdirilən nəşrlərə əsaslanaraq Azərbaycanın Cənubi Qafqaz ölkələri arasında lider olduğunu bir daha söyləmək olar. Belə ki, Azərbaycanda son aylar ərzində 816, Gürcüstanda 673, Ermənistanda isə 643 elmi publikasiya nəşr edilib. Web of Science elmi bazasında ümumilikdə ali təhsil müəssisələri tərəfindən 953 məqalə qeydə alınıb. Bu, son 5 ildə 3 dəfədən çox artım deməkdir.




# 2020-ci il Zəfər ili kimi tarixdə qalacaq

Sarvan İBRAHİMOV

İllər öncə yaddaşıma oturuşan müdrik bir deyimlə yazıma qanad vermәyim heç də təsadüfi deyildir. Kimə məxsusluğunu dəqiq xatırlamasam da, mütləq bir həqiqəti özündə ehtiva etdiyinə zərrə qədər şübhə yeri saxlamır: "Müharibəni sülh, iradə və ruh yüksəkliyi hesabına udmaq olar". O ruh, o iradə ki, sonunda sülh gətirərək Zəfər sevincini, xoşbəxtliyini bizə yaşatdı. Müzəffər Ali Baş Komandanın biz bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi mesajı tarixi ədalətin təntənəsinin dünyaya diqtəsi idi.

XXI əsr insanının dünyanın gözəgörünməz düşməni ilə qarşı-qarşıya dayandığı arzuolunmaz bir dönəmdə COVID-19 mübarizəsindən bizlər də kənarda dayanmadıq.

Az qala üç on ili haqlayan yurd nisgilimiz, torpaq həsrətimiz daha təhlükəli düşmən - erməni işğalçıları ilə mübarizəmizi daha önə çıxartdı.

Müqəddəs amal uğrunda Azərbaycan xalqının səfərbər və həmrəyliyi qarşısında işğalçı Ermənistanın ara vermәyən təxribatları cavabsız qalmadı. Tarixi ədalətin zəfər çalmasını haqq edərək Vətən müharibəsinə qalxan məğrur xalqımız 44 günlük savaşın sonunda böyük qələbənin işığına yığışdı. Rəşadətli Ordumuzun "dəmir yumruq" zərbəsi ilə diz çökən düşmən məğlubiyyət acısını dadaraq tarixin qaranlıq küncünə sürükləndi. Ali Baş Komandanın əmri ilə Müzəffər Azərbaycan Ordusunun əks-hücum əməliyyatı Zəfər marşına çevrilərək tarixin qızıl səhifəsini bəzədi. Əzəli torpaqlarımız yağılardan təmizlənərək ərazi bütövlüyümüz tam bərpa olundu. Əzmini, iradəsini döyüş meydanına daşıyan xalqın hər bir vətəndaşı müsəlləh Əsgər olaraq Vətənin qürur günündə pay sahibinə çevrildi.

Tarixi Zəfər çalmaqla Qalib xalq kimi dünya hərb tarixində parlaq səhifə açan Azərbaycan zəngin dövlətçilik və hərb tarixini özünün ilham mənbəyinə çevrilməklə qəhrəmanlıq dastanını yazdı.

Qürur və fəxarət hisslərini yaşadığımız qələbə müjdəsi Vətən müharibəsinin son akkordlarına çevrildi. Özünü qalib kimi dünyaya təqdim etməyi haqq edən Azərbaycan Zəfərini bayram paradı ilə qarşıladı.

Tarixin çətin və mürəkkəb dönəmlərində bir çox paradların keçirildiyi məkan kimi yaddaşımıza şahidlik edən Azadlıq meydanı bu dəfə tam fərqli görkəm almışdı... Qalib dövlətin Ali Baş Komandanı Zəfər paradının sevincini və qürurunu Müzəffər xalqı ilə bölüşürdü: "Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bu gündən sonra ancaq və ancaq irəli gedəcəyik".

Şanlı qələbəmiz ili kimi tarixdə qalacaq 2020-ci ilə yekun vuran cənab Prezident İlham Əliyev yeni hədəflər müəyyənləşdirdi. Gələcəkdə bizi böyük işlərin gözlədiyini vurğulamaqla ölkəmiz üçün yeni dövr-quruculuq, inkişaf dövrü başladığını bəyan etdi: "Bu dövr şərəfli dövr olacaqdır. Qarabağ bölgəsində cənnət yaradacağıq".

Şanlı Zəfər! Şərəfli missiya...

Müzəffər xalq qalibiyyət tarixinin şərəfli dövrü astanasında...

Sinifi döyüş səngərinə dəyişən Vətənpərvər Azərbaycan müəllimi...

Rəşadətli Ordunun Qalib Əsgəri...

Qəhrəman, Şəhid müəllim!

Quruculuq dövrünün qürurlu insanı!

Qarabağ torpağında QARABAĞLI uşaqlara Şanlı Zəfər tarixini öyrədəcək MÜƏLLİM!

Vətən sevgisi ilə dil açan gələcəyin qurucuları Ali Baş Komandanın Qələbənin simvoluna çevrilən şüarını bir ağızdan deyəcəklər:

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

# Şəhid olan təhsil işçilərinin ailələri ziyarət edilib

Təhsil Nazirliyi rəhbərliyinin təşəbbüsü ilə nazirliyin əməkdaşları Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olan təhsil işçilərinin ailələrini ziyarət ediblər.

Nazirliyin əməkdaşları Gəncə, Lənkəran şəhərləri və Ağstafa, Beyləqan, Gədəbəy, Saatlı, Sabirabad, Tovuz, Cəlilabad, İsmayıllı, Oğuz, Şamaxı, Samux, Ağdam, Kürdəmir rayonlarından olan şəhid təhsil işçilərinin ailələrinə baş çəkib, onlarla həmsöhbət olub, mənəvi dəstəklərini ifadə ediblər.

Qeyd edək ki, Vətən müharibəsi şəhidlərinin ailələri, müharibədə yaralananlar və onların ailələri hər zaman xüsusi diqqət və qayğı ilə əhatə olunur.







# Təhsil işçilərinin həmrəylik görüşü




## Görüş müxtəlif ölkələrin təhsil müəssisələrində çalışan həmvətənlərimizin beynəlxalq təhsil təcrübəsini öyrənmək və bölüşmək məqsədi daşıyıb

Dekabrın 26-da Təhsil Nazirliyinin dəstəyi, "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə "Təhsil işçilərinin həmrəylik görüşü" keçirilib.

Dünya Azərbaycanlılarının Həmrəylik gününə həsr olunan görüş müxtəlif ölkələrin təhsil müəssisələrində çalışan həmvətənlərimizin beynəlxalq təhsil təcrübəsini öyrənmək və bölüşmək məqsədi daşıyıb.

Görüş Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

"T-Network"-un tədqiqat və inkişaf üzrə baş mütəxəssisi Qoşqar Məhərrəmovun və "T-Network" koordinatoru Cəfər Mənsiminin moderatorluğu ilə baş tutan görüşdə həmvətənlərimizin yaşadığı ölkədəki məktəb adət-ənənəsi, valideyn, müəllim, şagird əməkdaşlığı istiqamətindəki yanaşmalar, idarəçilik baxışı, təhsilin inkişafı istiqamətində atılan addımlar, ölkəmizlə müqayisədə müşahidə edilən fərqlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycandan Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov, Latviyadan Riqa Klassik Gimnaziyasının direktoru, Latviya Elm və Təhsil Nazirliyinin Məşvərət Şurasının sədri Roman Əliyev, Estoniyadan pedaqoq, "Maraq" məktəbinin yaradıcısı və rəhbəri Sənəm Əliyeva, Özbəkistandan "British School of Tashkent"in fizika müəllimi Ceyhun Cabbarov, Küveytdən "Universal American School"un riyaziyyat müəllimi Mərdan Əliyev, Türkiyədən "Al-Basheer International school"un ingilis dili müəllimi Kəmalə Qasımova, Amerikadan "Tringle Math and Science Academy"nin imtahan koordinatoru Əkbər Aslanov iştirak ediblər.

Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən canlı yayımlanan görüşdə sosial şəbəkə istifadəçilərinin sualları da cavablandırılıb.

# Mingəçevir Dövlət Universiteti: yeni çağırışlar və nailiyyətlər

**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

Müasir dövrdə dördüncü sənaye inqilabının çağırışlarına və əmək bazarının dinamik dəyişən tələblərinə cavab verən yüksək ixtisaslı, rəqabətqabiliyyətli kadrların hazırlanması, "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın və cəmiyyət həyatına səmərəli inteqrasiyanın təmin olunması ali təhsil müəssisələrinin başlıca strateji məqsədlərindən hesab edilir.

Qlobal pandemiya şəraitində dünyada əyani tədris prosesinin dayanması, tələbə və elmi-pedaqoji kadrların akademik mobilliliyinin minimuma enməsi, elmi fəaliyyətin və əməkdaşlığın məzmununun əhəmiyyətli dəyişməsi, tələbə qəbulunda kəmiyyət və struktur dəyişikliklərinin baş verməsi və meydana çıxan digər çağırışlar universitetlərin qarşıda dayanan məqsədlərinə nail olması istiqamətindəki fəaliyyətlərində ciddi məhdudiyyətlər və fərqli xüsusiyyətlər yaratmışdır.



COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar tədbirlərin davam etdirilməsi dünyanın bir çox ölkələrində fəaliyyət göstərən ali təhsil müəssisələrini qısa müddətdə mövcud reallıqlara uyğunlaşmağı, rəqəmsallaşmanın sürətləndirilməsi, təhsilin distant təşkili və tədris prosesinin davamlılığının təmin edilməsi üçün bütün mümkün resursları səfərbər etməyi, effektiv, çevik və qeyri-ənənəvi qərarlar qəbul etməyi tələb edən olduqca mürəkkəb situasiyalar ilə qarşılaşdırmışdır.

Ölkəmizdə 2020/2021-ci tədris ilinin başa çatan payız semestri pandemiya dövrünün mövcud çətinlikləri ilə yanaşı, müzəffər Ali Baş Komandanımızın və rəşadətli Azərbaycan Ordusunun sayəsində möhtəşəm tarixi Zəfərin əldə edilməsilə nəticələnən 44 günlük Vətən Müharibəsi ilə yadda qalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə 15 sentyabr 2020-ci il tarixli müraciətində qarşıya qoyduğu vəzifələrdən irəli gələrək, cari tədris ilinin payız semestri ərzində ali təhsilin təşkili zamanı gənclərin sağlamlığı və inkişafı, onların müasir bilik və bacarıqlar əldə etməsi ilə yanaşı, milli-mənəvi dəyərlərimiz əsasında və vətənpərvərlik ruhunda tərbiyə olunmasının prioritetliyi təmin edilmişdir.

Hökumət tərəfindən müvafiq normativ-hüquqi aktlara edilən müvəqqəti dəyişikliklər, qəbul edilmiş yeni qaydalar və təlimatlar, Təhsil Nazirliyinin birbaşa dəstəyi ilə ali təhsil müəssisələri tərəfindən həyata keçirilən tədbirlər, universitetlərdə ötən tədris ilindən qazanılmış təcrübələr və yaradılmış yeni imkanlar hesabat dövründə ali təhsildə davamlılığın, əlçatanlığın təmin olunmasına və cari payız semestrinin uğurla başa çatdırılmasına imkan vermişdir. Eyni zamanda, rəqəmsallaşma və məsafədən təhsilin üstünlükləri tədris prosesinin təşkili qaydalarının optimallaşdırılması və universitet dəyərlərinə yenidən baxılması üçün güclü stimul yaratmış, bütün istiqamətlər üzrə fəaliyyətlərin yeni məzmunda inkişafına təkan vermişdir.

## Gələcəyə baxış konsepti və modernləşən universitet

Ölkəmizin paytaxt səviyyəli nüfuzlu ali təhsil müəssisələrindən birinə çevrilməsini strateji baxış olaraq müəyyənləşdirən MDU öz fəaliyyətini milli ali təhsilimizdə müşahidə olunan inkişaf trendlərini, beynəlxalq ali təhsil məkanında baş verən dəyişikliklərə əsaslanan yeni çağırışları, eləcə də universitetin mövcud potensialını əhəmiyyətli dərəcədə nəzərə almaqla həyata keçirir.

Hesabat dövrü ərzində universitetdə tədris, elmi tədqiqat, idarəetmə, beynəlxalq əməkdaşlıq və digər istiqamətlər üzrə görülmüş işlər MDU-nun milli ali təhsilimizin ümumi xəritəsində mövqeyinin gücləndirilməsini və onun regional ekosistemin mühüm aktorlarından birinə çevrilməsini hədəfləmişdir.

Mövcud şərtlər əsasında tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi fəaliyyətin səmərəliliyinin artırılması, maddi-texniki bazanın gücləndirilməsi, professor-müəllim və inzibati-texniki heyət üzvlərinin həvəsləndirilməsi və sosial rifahının yaxşılaşdırılması, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, özəl və dövlət qurumları ilə səmərəli işbirliyinin yaradılması modernləşməkdə olan MDU-nun prioritet fəaliyyət istiqamətləri kimi müəyyən edilmişdir.

Əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı və rəqabətqabiliyyətli kadrların hazırlanması, təhsilalanlara müasir bilik və bacarıqların ötürülməsi, onların karyera inkişafına və məşğulluq problemlərinin həllinə dəstək göstərilməsi, universitetin innovasiya potensialının və cəmiyyət həyatında faydalı rolunun genişləndirilməsi istiqamətində birgə layihələrin reallaşdırılmasına böyük üstünlüyün verilməsi, bütövlükdə, MDU-nun cəlbediciliyinin və regionun sosial-iqtisadi inkişafına töhfəsinin artmasına xidmət etmişdir.

Hazırda universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 23 ixtisas (bakalavriat) və 12 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilir. 3 fakültənin, 10 kafedranın mövcud olduğu universitetdə ümumilikdə 2600-dən artıq tələbə və magistrant təhsil alır.

Bütövlükdə 300-dən artıq əməkdaşı olan universitetdə 195 professor-müəllim heyəti üzvü çalışır ki, onlardan 57 nəfərin müvafiq istiqamətlər üzrə elmi dərəcəsi, 41 nəfərin isə elmi adı vardır.

Hesabat dövründə MDU-da tələbə qəbulu planı bakalavriat səviyyəsi üzrə 92%, magistratura səviyyəsi üzrə isə 88% yerinə yetirilmişdir. Cari tədris ilində universitetə yüksək balla qəbul olan və "Gələcəyin müəllimi" təqaüdünə layiq görülən tələbələrin sayında artımın müşahidə edilməsini son dövrdə MDU-nun imicinin yüksəldilməsi istiqamətində görülən işlərin müsbət nəticəsi kimi qiymətləndirmək olar.

## Fərqli şərtlər çərçivəsində tədrisin səmərəli təşkili və davamlılığı

Pandemiya şəraitində universitetin əsas vəzifəsi tədrisin keyfiyyətli şəkildə davamlılığının təmin edilməsi, məsafədən təhsil prosesində tələbələrin yüksək davamiyyətinə, fəallığına və mənimsəmə səviyyəsinə, biliyin qiymətləndirilməsi prosesinin optimal həllinə nail olunmasından ibarət olmuşdur. Bütün mümkün online kommunikasiya alətlərindən istifadə, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastruktur imkanların və kadr potensialının səfərbər olunması sayəsində MDU bu vəzifələrin öhdəsindən uğurla gələ bilmişdir.

"Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" Nazirlər Kabinetinin 29 oktyabr 2020-ci il tarixli Qərarına əsasən hesabat dövründə MDU-da tədris prosesi məsafədən təşkil olunmuşdur. Təhsil Nazirliyinin müvafiq dəstəyi ilə universitetdə bakalavriat və magistratura səviyyələri üzrə tədris davamlı surətdə "Microsoft Teams" platforması üzərindən həyata keçirilmişdir.

Ali təhsil sahəsində yeni reallıqlar və uğurlu dövlət siyasəti

Mövcud qanunvericiliyin tələbləri və aparıcı ali təhsil müəssisələrinin müsbət təcrübəsi əsasında universitetdə yeni tədris ilinə hazırlıqla bağlı müvafiq əmrin verilməsi və buna əsasən tədris prosesinin təşkilinə dair qarşıya konkret vəzifələrin qoyulması, struktur bölmələr arasında funksional iş bölgüsünün dəqiq aparılması tədrisin təşkilində səmərəliliyin artırılmasına səbəb olmuşdur.

Ötən tədris ilinin yaz semestrində distant təhsil sahəsində qazanılmış təcrübənin təkmilləşdirilməsi məqsədilə, "Microsoft Teams" platformasının davamlı yenilənən alətləri və funksional imkanları barədə MDU-nun professor-müəllim və inzibati-texniki heyət üzvləri, tələbələri və magistrantları üçün çoxsaylı təlimlər təşkil edilmişdir.

Hesabat dövründə universitetdə tədrisin məsafədən təşkili ilə bağlı atılan məqsədyönlü, ardıcıl və çevik addımların sayəsində təhsilverənlərin və təhsilalanların online dərslərdə yüksək iştirakçılıq səviyyəsi müşahidə edilmiş, müəllimlərin 95-100%-i, tələbələrin isə 85-90%-i məsafədən təhsilə cəlb olunmuşdur.

Semestr ərzində müvafiq fənlər üzrə mühazirə mətnləri, təqdimatlar, eləcə də dərslik və dərs vəsaitlərinin elektron formatda bütün tələbələrə çatdırılması təmin edilmiş, MDU-nun professor-müəllim heyəti tərəfindən hazırlanan videodərslərin bazası genişləndirilmişdir. Bu vaxta qədər ümumilkdə 1500-dən artıq videodərs çəkilərək tələbələrin ixtiyarına verilmişdir ki, bütün bunlar tələbə və magistrantların müvafiq fənlər üzrə zəruri bilik və bacarıqlar əldə etməsi ilə yanaşı, imtahanlardan uğurla keçməsi üçün ciddi əsaslar yaratmışdır.

MDU-da 2020/2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyasını mövcud qaydalara uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək neqativ halları operativ surətdə aradan qaldırmaq məqsədilə müvafiq əmr verilmişdir.

Qaydalara əsasən universitetdə imtahan sessiyasının 11 yanvar - 6 fevral 2021-ci il tarixlərində "Microsoft Teams" platforması üzərindən online formada şifahi qaydada keçirilməsi qərara alınmışdır. Tələbələrin aralıq qiymətləndirilməsi hər biri 10 bal olmaqla 5 suala verilən cavab əsasında şifahi imtahan yolu ilə həyata keçiriləcəkdir.

Sevindirici haldır ki, tələbə, magistrant, valideyn və ictimaiyyət nümayəndələrindən MDU-da məsafədən keçirilən dərslər, kollokviumlar və imtahan sessiyasına hazırlıq işlərindən məmnunluq ifadə edilən çoxsaylı müraciətlərin daxil olması cari imtahan sessiyasının uğurla başa vurulacağını qeyd etməyə böyük əminlik yaradır.

## Elmi fəaliyyətdə forma və məzmun dəyişiklikləri

Payız semestri ərzində pandemiya şəraitində tədris prosesi ilə yanaşı, elmi istiqamətdə də universitet fəaliyyətinin davamlılığı, səmərəliliyi və nəticəyönümlülüyünün təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır.

Hesabat dövründə ənənəvi formada 10 kafedra tərəfindən reallaşdırılan elmi fəaliyyət çərçivəsində 2021-2025-ci illər üçün MDU-da dörd elm sahəsi üzrə (təbiət elmləri, texniki elmlər, ictimai elmlər, humanitar elmlər) ümumilikdə 16 problemə dair 43 mövzunu əhatə edən perspektiv beşillik elmi-tədqiqat işlərinin planı hazırlanmış və təsdiq edilmişdir.

Gənc əməkdaşların və magistraturanı bitirən məzunların elmi fəaliyyətlə məşğul olması üçün imkanlar artırılmış və stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. MDU əməkdaşlarının digər universitetlərin doktoranturalarında təhsil almasına xüsusi diqqət yetirilmişdir. Hazırda universitetin 30 əməkdaşı fəlsəfə doktoru proqramı, 5 əməkdaşı isə elmlər doktoru proqramı üzrə ölkəmizin müxtəlif ali təhsil müəssisələrində və AMEA-nın sahə institutlarında dissertant və doktorantdır. Fəlsəfə doktoru proqramı üzrə 15 nəfər əsasən müdafiəyə hazırdır və müvafiq müdafiə şuralarının fəaliyyətə başlamasını gözləyir.

Eyni zamanda, universitet tarixində ilk dəfə olaraq, payız semestrində MDU-nun bir əməkdaşı Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin müvafiq dəstəyi sayəsində "Türkiyə bursları" təqaüd proqramı çərçivəsində keçirilən müsabiqədə uğurla iştirak edərək Türkiyənin Qazi Universitetinin Təhsil Elmləri İnstitutunda "Təhsilin idarə edilməsi" ixtisası üzrə doktorantura ali təhsil səviyyəsinə qəbul olmuşdur.

Bundan əlavə, universitetin elmi dərəcəli kadrlara olan yüksək təlabatını nəzərə alaraq Elmi Şura tərəfindən MDU-da ali təhsilin doktorantura səviyyəsi üzrə kadr hazırlığının təşkili ilə bağlı Azərbaycan Respublikası Təhsil Nazirliyi qarşısında müvafiq vəsatətin qaldırılması qərara alınmışdır.

Hesabat dövründə, ilk dəfə olaraq, MDU-nun elmi jurnalının təsis edilməsi, redaksiya heyətinin təsdiqi və qeydiyyatla bağlı müvafiq dövlət qurumu qarşısında vəsatət qaldırılması barədə müvafiq qərarın qəbul olunması növbəti illər ərzində universitet alimləri və gənc tədqiqatçılarının elmi fəallığının yüksəldilməsi, onların elmi tədqiqatlarının üzə çıxarılması imkanlarının genişləndirilməsi məqsədini daşıyır.

Pandemiya şəraitində universitetin professor-müəllim heyətinə həyata keçirdikləri tədqiqatların nəticələrini təqdim etmək, müvafiq mövzular ətrafında elmi diskussiyalar aparmaq və gələcək elmi fəaliyyətlərin konturlarını müəyyən etmək imkanları yaratmaq, tələbə və magistrantların elmi potensialını üzə çıxarmaq və onları elm-tədqiqat fəaliyyətinə daha aktiv cəlb etmək məqsədilə MDU-da virtual formatda cəmiyyət həyatının aktual problemlərinə həsr olunmuş elmi konfranslar, nəzəri-praktiki seminarlar, dəyirmi masalar təşkil edilmişdir. Bununla yanaşı, MDU-nun bir sıra akademik heyət üzvləri respublika və beynəlxalq səviyyədə keçirilmiş müxtəlif formatlı elmi tədbirlərdə fəal iştirak etmiş, onların nüfuzlu elmi nəşrlərdə məqalələri dərc olunmuşdur.

MDU-da ümummilli lider Heydər Əliyevə həsr olunan elmi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir. Dahi şəxsiyyətin irsinin araşdırılması və tələbə gənclərə ötürülməsi universitetdə vətəninə, dövlətinə və xalqına bağlı, layiqli, vətənpərvər mütəxəssislərin yetişdirilməsi işinə böyük töhfə verir. Bu məqsədlə, 12 dekabr 2020-ci il tarixində MDU-da "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım gününə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi, müstəqilliyimizin rəmzidir" mövzusunda "Microsoft Teams" platforması üzərindən online formatda elmi konfrans keçirilmişdir.

11-12 dekabr 2020-ci il tarixlərində MDU-da online formatda təşkil olunan "Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar" mövzusunda respublika elmi konfransı ali təhsil və elm ictimaiyyətinin böyük marağına səbəb olmuşdur.

MDU-da Vətən Müharibəsində əldə olunan tarixi qələbənin iqtisadi perspektivləri və işğaldan azad edilmiş bölgələrimizin gələcək inkişafına həsr edilmiş elmi tədbirlərin təşkil edilməsinə xüsusi diqqətin yetirilməsi və bununla əlaqədar bütün zəruri imkanların yaradılması bu istiqamətdə elmi tədqiqatlara marağın artırılması və fəallığın daha da yüksəldilməsinə hədəflənmişdir. Bu baxımdan, MDU-da "Tarixi qələbənin davamlı iqtisadi inkişafa potensial təsirləri" mövzusunda keçirilmiş nəzəri-praktiki seminar Qarabağın inkişafı məqsədilə tədqiqat istiqamətlərinin, dövlət tərəfindən həyata keçiriləcək inkişaf proqramlarına, görüləcək abadlıq və quruculuq işlərinə mümkün dəstək tədbirlərində universitetin rolunun müəyyən edilməsi baxımdan mühüm əhəmiyyət kəsb etmişdir. Bundan başqa, universitetdə Tələbə Elmi Cəmiyyətinin (TEC) "Qarabağ Azərbaycandır!" mövzusunda keçirdiyi elmi konfrans da kollektiv tərəfindən böyük maraqla qarşılanmışdır.

Bununla yanaşı, MDU-da qabaqcıl yerli universitetlər və sənaye qurumları ilə birgə ölkə və region iqtisadiyyatının aktual problemlərinə həsr olunan müxtəlif formatlı elmi tədbirlərin keçirilməsinə xüsusi önəm verilmişdir.

## İdarəetmədə yüksək çeviklik və fəal tələbə iştirakçılığı

Sosial həssaslığın yüksək olduğu mövcud şəraiti nəzərə alaraq, cari tədris ilinin payız semestri ərzində qabaqcıl dünya təcrübəsindən faydalanmaqla universitet idarəçiliyində daha çevik alətlərin tətbiqinə və şəffaf mexanizmlərin yaradılmasına mühüm diqqət yetirilmişdir. Qəbul edilmiş müvafiq qərarlar əsasında MDU-nun struktur bölmələri arasında koordinasiyanın gücləndirilməsi və onların fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində zəruri addımlar atılmışdır.

2020/2021-ci tədris ilindən başlayaraq MDU-nun yeni təsdiq olunmuş Elmi Şurasının tərkibində və fakültə elmi şuralarında tələbələr bərabərhüquqlu üzv statusunda təmsil olunmuş, imtahan sessiyasının təşkili çərçivəsində yaradılmış İmtahan Qərargahı və Apellyasiya komissiyalarının tərkibinə fəal tələbələr daxil edilmişdir.

Universitet idarəçiliyində şəffaflığın artırılması və ictimai hesabatlılığın təmin edilməsi məqsədilə yaradılmış, Mingəçevir şəhərinin tanınmış və nüfuzlu ziyalılarının təmsil olunduğu MDU-nun İctimai Nəzarət Şurası tədrisin və imtahan sessiyasının təşkili, tələbə və valideynlərin müraciətlərinə baxılması prosesində, universitetlə şəhər ictimaiyyəti arasında kommunikasiyanın qurulmasında fəal iştirak etmişdir. Mütəmadi olaraq toplanan Şuranın 29 dekabr 2020-ci il tarixində keçirilmiş sonuncu iclasında MDU-nun rektoru 2020/2021-ci tədris ilinin payız semestrinin yekunları haqqında geniş hesabat məruzəsi etmişdir.

Tələbə, magistrant, əməkdaş və valideynlərin arzu və təşəbbüslərini dinləmək, onları maraqlandıran sualları operativ cavablandırmaq məqsədilə universitetin rəhbər şəxsləri tərəfindən "Microsoft Teams" platforması üzərindən mütəmadi olaraq görüşlər keçirilir. Faktiki olaraq, hər bir şəxsin istədiyi vaxt universitetin rəhbər vəzifə tutan əməkdaşları ilə online formatda görüşünün təmin edilməsi mümkündür.

MDU-ya qəbul olunmuş birinci kurs tələbələrinin universitet həyatına çevik adaptasiyasını təmin etmək məqsədilə 22-27 oktyabr 2020-ci il tarixlərində Onlayn Oriyentasiya günləri keçirilmişdir. Görüşlərdə birinci kurs tələbələrinə fakültə, tədris şöbəsi, beynəlxalq əməkdaşlıq və tələbə təşkilatlarının nümayəndələri tərəfindən fərdi tədris planları, tədris olunacaq fənlər, semestrlər üzrə toplanılacaq kreditlərin miqdarı, sərbəst işlər, biliyin qiymətləndirilməsi mexanizmi, mübadilə imkanları, tələbə həyatı, tyutor xidməti və MDU haqqında ətraflı məlumat verilmişdir.

(Ardı var)

**Fərrux RÜSTƏMOV - 60**

# Professor Fərrux Rüstəmova açıq məktub




Hörmətli professor Fərrux Abbas oğlu Rüstəmov!

Sizin - pedaqogika üzrə elmlər doktoru, Əməkdar elm xadimi, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki, Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı və respublikamızın tanınmış ziyalısının 60 yaşı tamam olur. 60 illik ömrün işığında biri-birinin ardınca ötüb keçərək tarixə qovuşan bu illərin hər biri nə qədər çətinliklər yaşatsa da, onlar ömrünüzün yaddaqalan anları kimi sizə doğma və əzizdir. Həm müəllim, həm də alim kimi qazandıqlarınız bu gününüzə ən qiymətli bir töhfədir. Onları xatırlamaqla unutduqlarınızı tapacaqsınız və bundan məmnun qalacaqsınız. Bu məktubumda da həmin hadisələrin bəziləri ilə sizi baş-başa qoymaq istədim.

## Şövkət ananın arzuları

1961-ci ilin qışında (01 yanvarda) Qədim Göyçənin Cil kəndində dünyaya göz açmağınız Rüstəmovlar ailəsinə böyük sevinc bəxş etdi. Kənd həyatının özünəməxsus çətinlikləri, maddi sıxıntılar olmasına baxmayaraq valideyn sevgisi ilə böyüyürdünüz. Lakin atanızın vaxtsız vəfatı bu çətinlikləri bir az da artırdı. Əminizin yaxın köməyi ailənizdə vəziyyətin nisbətən yaxşılaşmasına səbəb olsa da, bu kömək ata niskilinə üstün gələ bilmədi. Ailənin yükü Şövkət ananın, bir də evin birinci övladı kimi sizin - balaca Fərruxun çiyinləri üzərinə düşdü.Sövkət ana övladlarını hamıdan yaxşı, qayğısız böyütmək, atasızlığı onlara hiss etdirməmək üçün var qüvvəsini sərf edirdi. Həyat yoldaşının əmanəti olan dörd oğul övladının sağlam böyüməsinə çalışır, onların təhsilli olmasını, inkişaf etməsini arzulayırdı.

## Ümid çıraqdır

Təhsil cəmiyyətin ən zəruri atributlarından biridir. Hər zaman insanın formalaşması, inkişaf etməsi üçün təhsil amilinə istinad olunub. İnsanlar özlərinin ümidlərini təhsilə bağlayıblar. Gələcəklərinə gedən yolu işıqlandırmaq, onu daha da aydınlaşdırmaq üçün təhsilin qüdsiyyəti olan ziyasından bir çıraq kimi istifadə ediblər. Ona ümid yeri kimi baxıblar. Siz də hələ Cil kənd orta məktəbində oxuduğunuz müddətdə bu müqəddəs ümid çırağına yeganə imkan kimi baxmısınız. Məktəbə gedəndə də, məktəbdən qayıdıb ev təsərrüfatında ailəyə kömək edəndə də kitab oxumaqdan, öyrənməkdən usanmamısınız. Ona yeganə ümid çırağı kimi baxmısınız. Hətta oxumaqda sinif yoldaşlarınıza, dostlarınıza dəstək də olmusunuz.

## Tələbəlik illərinin sınaqları

...Müəllimlər müqəddəs bir işlə məşğul olurlar. Onlar düşündüklərini, bildiklərini öz şagirdlərinə öyrədirlər. Həm də səliqəli-sahmanlı geyimləri ilə fərqlənirlər. Maraqlı söhbətləri ilə diqqəti cəlb edirlər. Bəlkə, onlar bu bildiklərini sehirli bir aləmdən alıb gətirir, şagirdlərinə bəxş edirlər... Hələ lap aşağı siniflərdə sizi düşündürən bu qəribə ritorikalar yuxarı siniflərə qalxdıqca aydınlaşdı. Müəllim əməyinin mahiyyətində olan çətinliyi, lakin çətin olduğu qədər də xeyirxahlığı duymağa başladınız. Elə bu arzu, missiya da sizi 1978-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsinə gətirdi. Burada təhsil aldığınız illərdə (1978-1982) tələbəlik illərinin maddi çətinliklərini, ağırlığını yaşadınız. Lakin bütün bunlar sizi qorxutmadı, əksinə, daha da fəal olmağa sövq etdi. İctimaiyyətçi, həm də yaradıcı, tədqiqatçı tələbə oldunuz. Fakültə Əlaçılar Şurasının, eləcə də Tələbə Elmi Cəmiyyətinin sədri kimi məsuliyyətli vəzifələr sizə həvalə olundu. Respublika miqyaslı müxtəlif tədbirlərdə iştirak edərək döş nişanları, diplomlar aldınız. O dövrün ən yüksək təqaüdünə - Lenin təqaüdünə layiq görüldünüz.

Elə sizin tədqiqatçılığınız da bu illərdən başladı. "Gənc müəllim", "Azərbaycan gəncləri", "Azərbaycan pioneri" qəzetlərində çıxışlar etməyə başladınız.

1982-ci ildə institutu bitirən kimi təyinatınızı Quba rayonunun Rəngidar kənd səkkizillik məktəbinə verdilər. Siz orada müəllim, sonra məktəb direktoru işlədiniz. O dövrdə Quba rayon "Şəfəq" qəzetinin müxbiri kimi də fəaliyyət göstərdiniz. Məktəbdə işlədiyiniz illərdə həm müəllim, həm də təhsil idarəçisi kimi təcrübə topladınız.

Siz dərs deyəndə də, məktəb direktoru olanda da həmişə elmi yaradıcılığa həvəs göstərir, müşahidələr əsasında ümumiləşdirmələr apararaq mətbuatda çıxışlar edirdiniz. Elmi-pedaqoji tədqiqatlar aparmaq barədə düşünürdünüz.

## Niyyətin hara, mənzilin ora

1985-ci idə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına qəbul elanını görəndə sevindiniz və bu müsabiqədə iştirak etməyi qarşıya məqsəd qoydunuz. Necə deyərlər, "Niyyətin hara, mənzilin ora". Qəbul imtahanlarını uğurla verib "Pedaqogika nəzəriyyəsi və tarixi" ixtisası üzrə əyani aspiranturaya qəbul olundunuz. Akademik Hüseyn Əhmədovun rəhbərliyi altında "Azərbaycan Sovet pedaqoji elminin inkişafı (1961-1981-ci illər)" mövzusunda namizədlik dissertasiyası üzərində işlədiniz. Vaxtından əvvəl müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi aldınız. 2003-cü ildə isə "Azərbaycanda pedaqoji elmin inkişaf yolları (1920-1991-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etdiniz. Daha sonra doğma institutun divarları arasında addımbaaddım böyüdünüz, aspirantlıqdan elmlər doktoru, professor, elmi işçilikdən fakültə dekanı vəzifəsinə qədər yüksəldiniz. Ən başlıcası siravi müəllimlikdən "Əməkdar elm xadimi" kimi yüksək bir mərtəbəyə çatdınız. Elmin enişli-yoxuşlu yollarında Azərbaycan pedaqoji elminin klassiklərindən olan akad. Hüseyn Əhmədovun məsləhətlərinə tapındınız. Azərbaycan pedaqoji fikir tarixində təkrarolunmaz bir cığır açdınız. Əvvəla, onu deyim ki, pedaqoji fikir tarixinin yaradıcısı kimi müəlliminiz Hüseyn Əhmədovla elmi yaradıcılıq yolunu birgə addımlayan yolçular oldunuz. Burada dünya filosofu Konfutsinin belə bir fikri yadıma düşür: "Müəllim və şagird birgə boy atır". Siz, doğrudan da, bir-birinizi zənginləşdirdiniz. Hüseyn Əhmədov sizin şəxsinizdə müasir dövrün ciddi bir pedaqogika, təhsil tarixçisinin boy atması ilə fəxr eləməyə başladı. Siz isə pedaqoji fikir tarixini yaradanlardan öyrənə-öyrənə yeni ruhla pedaqoji fikir tarixçisinə çevrildiniz. Özünüz demişkən, Hüseyn Əhmədovdan, digər klassiklərdən yaza-yaza yazmaq öyrəndiniz. Bu günə qədər həm pedaqogikanın nəzəri və praktik sahələri, həm məktəb və pedaqoji fikir tarixi, həm də təhsilin müxtəlif sahələri ilə bağlı ardıcıl tədqiqatlar apardınız, müəllimlərə, məktəblərə lazım ola bilən əsərlər yazdınız. 40 monoqrafiya, kitab və kitabça, 31 tədris proqramı, 250-dən çox elmi məqalə, 40 tezis, 180-dən artıq elmi-pedaqoji və publisistik qəzet yazısının müəllifi oldunuz.

## Pedaqoji fikir tarixinin yeni səhifələri

Siz yaradıcılığa hələ tələbəlik illərindən başlamısınız. İlk məqalələriniz tərbiyə məsələlərinə həsr olunsa da, 80-ci illərin sonundan etibarən ardıcıl olaraq pedaqoji fikir tarixi ilə məşğul olmusunuz. Xüsusilə Azərbaycan pedaqoji elminin inkişaf tarixini tədqiqat obyektinə çevirmisiniz. Əslində siz bu problem üzrə "Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi" (1988), "Azərbaycanda təlim nəzəriyyəsinin inkişaf tarixindən (1961-1980-ci illər)" (1988), "1961-1980-ci illərdə Azərbaycan pedaqoji elmində estetik tərbiyə nəzəriyyəsinin inkişafına dair" (1989), "Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən" (1992), "Azərbaycanda məktəbşünaslıq məsələlərinin tədqiqinə dair (1961-1980-ci illər)" (1999), "Azərbaycanda pedaqoji elmlərin inkişaf tendensiyaları" (1994), "Azərbaycanda pedaqoji terminologiyanın inkişafı tarixindən"(1997), "Azərbaycanda pedaqoji elmin təşəkkülü, inkişafı və problemləri" (1998), "Müasir dövrdə Azərbaycanda pedaqoji elm" (1998), "XX əsrdə Azərbaycanda pedaqoji elmin inkişafı" (1999), "Azərbaycanda pedaqoji elmin inkişaf yolları" (2003), "Azərbaycan pedaqogikaşünaslığı" (2016) kimi əsərlərinizi yazmaqla Azərbaycan pedaqoji fikir tarixinə yeni ab-hava gətirmisiniz. Bu əsərlərinizlə Azərbaycan pedaqoji fikir tarixinin yeni səhifələrini yazmısınız. Heç təsadüfi deyil ki, 1998-ci ildə "Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri" monoqrafiyası nəşr olunarkən prof. Nurəddin Kazımov bu əsəri "pedaqogika elmində yeni hadisə" kimi dəyərləndirmişdi. Həqiqətən, bu fundamental tədqiqat əsərinizdə Azərbaycan pedaqoji elminin aktuallığını itirməyən, öz əhəmiyyətini saxlayan nəzəri-metodoloji problemlər, şəxsiyyətin formalaşması, didaktikanın nəzəri və praktik məsələləri, tarixi-pedaqoji irsin tədqiqi, pedaqoji elmin inkişafını şərtləndirən başlıca amillər, pedaqoji elmlərin inkişafında beynəlxalq əlaqələrin rolu, eləcə də müasir dövrdə Azərbaycanda pedaqoji elm kimi konseptual xarakterli məsələlər əhatə olunur.

Bu əsər birmənalı şəkildə sizin pedaqogika tarixçisi kimi tarixi mövzuda olan yanaşma tərzinizi meydana qoyur. Bir müəllif olaraq tarixiliklə müasirlik arasında ədalətlə dayanırsınız. Onlara müasir müstəvidə yanaşa bilirsiniz. Həmçinin oxucunu bu tarixi mövzuların sehrində saxlamağı bacarırsınız.

Sizin yaradıcılığınızda Şərq, Qərbi Avropa və ABŞ-da təhsil-tərbiyə tarixinin araşdırılmasına həsr olunmuş tədqiqatlarınız xüsusi yer tutur və özünəməxsus cəhətləri ilə fərqlənir. Yeri gəlmişkən qeyd edək ki, 2000-ci illərdə elmi yaradıcılığınızda dünya pedaqoji fikir tarixinə dair ciddi araşdırmaların nəticəsi kimi meydana çıxan irihəcmli əsərlərlə rastlaşırıq: "Şərqdə pedaqogika tarixi"(2002), "Qərbdə pedaqogika tarixi" (2003), "Yeni dövrün pedaqogika tarixi"(2004), "Ən yeni dövrün pedaqogika tarixi" (2005). Biri-birinin ardınca nəşr olunan bu əsərlərdə dünyanın pedaqoji fikir yükünü daşıyan insanların portretlərini, onların yaşadığı dövrün xüsusiyyətlərini, eyni zamanda pedaqoji düşüncələri əlaqələndirən təhsil nəzəriyyələri və cərəyanlarını səciyyələndirmisiniz. Həmçinin tarixi-pedaqoji ornamentlərin müasir zamanla bağlılığını açıqlamısınız. Onlar bu gün sadəcə öyrənilməklə qalmır, həm də müasir pedaqoji düşüncəyə təsir etməklə onu qidalandırır.

Siz dünya pedaqoji incilərini əhatə edən əsərlərinizin əsasında fundamental xarakterli "Pedaqogika tarixi"(2006, 2011) dərsliyinizi yazmısınız. Bu kitab nəşr olunarkən mütəxəssislər zəngin tematikasına və əhatəli məzmununa görə onu sizin yaradıcılığınızın şah əsəri kimi qiymətləndirmişlər. Akad. Hüseyn Əhmədov belə bir əsərin yazılmasını igidlik hesab etmişdir. Prof. Əjdər Ağayev isə bu əsərə görə sizi mükəmməl pedaqogika tarixçisi adlandıraraq klassik pedaqoqlara sadiq qaldığınızı, müasirlik düşüncəsi ilə onları inkişaf etdirdiyinizi və sanballı bir elmi mövqe sərgilədiyinizi xüsusi olaraq dəyərləndirmişdir.

Azərbaycanın zəngin milli məktəb və pedaqoji fikir tarixi vardır. Orada insanlıq, onun inkişafı üçün nəyi desən, tapmaq mümkündür. Dediyiniz kimi, tarix özünün müasirliyi ilə canlıdır. Doğrudan da, pedaqoji fikir tariximizdə müasirliyi ilə diqqəti cəlb edən faktlara hər an rast gəlmək mümkündür. Siz bir tədqiqatçı kimi bu həqiqəti daha aydın görə bilmisiniz. Ona görə də N.Gəncəvi, M.V.Vidadi, M.P.Vaqif, Q.B.Zakir, M.Ə.Rəsulzadə, Ə.Y.Seyidov, M.M.Mehdizadə, M.Ə.Muradxanov, B.B.Komarovski, Xəlil Fikrət, A.Q.Rzayev, Ə.Ş.Həşimov, H.M.Əhmədov, Ə.A.Ağayev, Y.R.Talıbov, Ə.S.Tağıyev kimi şəxsiyyətlərin pedaqoji fikir və düşüncələrini tədqiqat obyektinə çevirmisiniz, onlara kitablar, məqalələr həsr etmisiniz. Bütün bu tədqiqatların nəticəsi olaraq pedaqoji fikir tarixinə dair biblioqrafiyalar hazırlayıb çap etdirmisiniz.

## Müasir ruhlu pedaqogikanın müəllifi

Hörmətli Fərrux müəllim, siz tarixə, tarixi hadisələrə yalnız bir tarixçi kimi deyil, həm də müasir dünyanın gözü ilə baxırsınız. Yeniliklərə, pedaqoji innovasiyalara fəal və yaradıcı münasibət bəsləyirsiniz. Təhsil islahatının ilk illərindəki müzakirələri və orada etdiyiniz konseptual çıxışları yaxşı xatırlayıram. O vaxt yeni kurikulumların hazırlanmasına başlayarkən ümumi pedaqoji prinsiplər məhz sizin təklifləriniz əsasında müəyyənləşdirildi. Sonralar ali təhsil sistemində ilk kurikulum nümunəsi - "Pedaqogika fənn kurikulumu" sizin elmi rəhbərliyiniz və təşkilatçılığınızla yazıldı.

Siz pedaqoji elmə tərbiyə nəzəriyyəsinə dair yazılarınızla gəlmisiniz. Və bütöv elmi yaradıcılığınızda pedaqogika nəzəriyyəsi ilə məşğulluğunuzu ardıcıl olaraq bu gün də davam etdirirsiniz. 40 ilə yaxın yaradıcılıq dövründə bir müəllim kimi ali məktəb auditoruyalarında pedaqoji fikir tarixi ilə yanaşı, həm də pedaqogika fənnindən mühazirələr oxumusunuz. Eyni zamanda təlim və tərbiyənin nəzəriyyəsi ilə bağlı araşdırmalar aparmısınız. Kitablar, məqalələr yazmısınız. Bu gün "Təlimdə geridə qalan şagirdlərlə müəllimin işinin məzmunu"(1993), "Bəzi pedaqoji anlayışların şərhinə dair" (1997), "Təhsilin humanistləşdirilməsi və yeni pedaqoji təfəkkür" (2000), "Pedaqoji texnologiyalar" (2001), "Yeni təlim texnologiyaları" (2003), "Təhsildə beynəlxalq əlaqələr" (2005), "Azərbaycanda ümumi təhsilin məqsəd və vəzifələri" (2005), "Distant təlim texnologiyaları" (2012), "Təlim prosesinin amilləri" (2013) və s. bu kimi müasirlik ruhu ilə zəngin olan əsərləriniz sizi cəmiyyətə, xüsusilə pedaqoji ictimaiyyətə pedaqogika nəzəriyyəçisi kimi tanıtdırmışdır.

Hazırda ali məktəblərimizdə sizin "Pedaqogika. Yeni kurs" (2002, 2007, 2010), "Ali məktəb pedaqogikası" (2007) dərsliklərinizdən istifadə olunmaqdadır. Onlara müasir pedaqogikanın nümunələri kimi istinad edilir. Çünki bu kitabların hər birində müasir məktəbdə gedən dəyişikliklərin xüsusiyyətləri, şagird, tələbə və müəllimlərin fəaliyyətləri, təhsilin məzmun və texnologiyalarında, qiymətləndirmə sistemində olan yeniliklər öz əksini tapmışdır. Onlar sizi müasir ruhlu pedaqogikanın müəllifi kimi tanıtmaqdadır.

## Xarici ölkələrdə nəşr olunan əsərlərin müəllifi

Sizin milli zəmində yazılan və azərbaycançılıq məfkurəsini zənginləşdirən bütün əsərləriniz Azərbaycan pedaqoji elminə böyük töhfədir. Onlar təkcə Bakıda deyil, Moskva, Səmərqənd, Çeboksarı, Tehran, Təbriz, İstanbul, Astana, Sankt-Peterburq və Tiflis şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində Azərbaycan, rus, türk, özbək dillərində çap edilmişdir. Rusiya Təhsil Akademiyası 2000-ci ildə sizin akad. Hüseyn Əhmədovla birgə yazdığınız "Müasir dövrdə Azərbaycanda təhsilin inkişafının əsas istiqamətləri" əsərinizi nəşr etmişdir. İlk pedaqoq alimsiniz ki, "Pedaqoji (təlim və tərbiyə) tarixi Şərqdə" (Tehran, "Xorşidafərin" nəşriyyatı, 2010, 377 s.) adlı kitabınız İran İslam Respublikasında çap olunmuşdur.

## Biblioqrafiyalar, salnamələr müəllifi

Hörmətli Fərrux müəllim, sizin yaradıcılığınızda pedaqoji elmin cəfakeş hesab etdiyiniz nümayəndələrinə böyük bir ehtiramın olduğu aydın görünür. Siz bu münasibəti tərtib etdiyiniz biblioqrafiyalarda, yazmış olduğunuz bioqrafik xarakterli salnamələrdə aydın ifadə etmisiniz. Bu gün akad. Hüseyn Əhmədovun, prof. Yəhya Kərimovun, Yan Amos Komenskinin əsərlərini tərtib etdiyiniz kitablardan, həmçinin akad. Hüseyn Əhmədov, prof. Əmrulla Paşayev, dos. Əyyub Tağıyev, dos. Tapdıq Məmmədov və başqaları haqqında məlumatları onlar haqqında yazdığınız monoqrafik araşdırmalardan oxumaq mümkündür.

## Elmi-pedaqoji kadr hazırlığı sahəsində xidmətlər

Sizin elmi fəaliyyətinizin bir istiqaməti ni də elmi kadr hazırlığı təşkil edir. Bu vaxta qədər 3 elmlər, 21 pedaqogika üzrə fəlsəfə doktoruna elmi dərəcə almaq üçün opponentlik etmisiniz. Müdafiə edərək alimlik dərəcəsi alan 20 doktorantın elmi rəhbəri olmusunuz. Müxtəlif dövrlərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Dissertasiya Şuralarında sədr müavini, üzv fəaliyyət göstərmisiniz. Sədrlik etdiyiniz Dissertasiya Şuralarının iclaslarında 18 elmlər doktoru, 146 fəlsəfə doktoru dissertasiya müdafiə etmişdir.

## Mükafatlar, təltiflər

Sizin böyük yaradıcılıq fəaliyyətiniz həmişə təltiflərlə qarşılanıb. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, akademik Mehdi Mehdizadə, "Gənc alimlər" və "Qızıl qələm" mükafatları laureatları olmusunuz. "Avropa Nəşr Mətbu evi" komissiyasının qərarı ilə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı (2009), "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" (2010) döş nişanı ilə təltif edilmisiniz. "Vektor" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "XXI əsr Azərbaycan ziyalıları", ADPU-da "İlin müəllimi" (2007), "İlin alimi" (2011, 2013, 2015) müsabiqələrinin qalibi olmusuz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə "Tərəqqi medalı"na, 2012-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüsünüz.

Hörmətli Fərrux Abbas oğlu Rüstəmov!

Bu gün bir pedaqoq, müəllim, təhsil təşkilatçısı olaraq sizin ən böyük mükafatınız həm də tələbələrinizin, həmkarlarınızın, təhsildə tərəfdaş olan valideynlərin, vətəndaşlıq missiyasını həyata keçirən pedaqoji ictimaiyyətin hər bir üzvünün hörmət və məhəbbətidir. Qoy bu hörmət və məhəbbət dolu mükafat və təltiflər həmişə sizinlə olsun! 60 illik bir alim ömrünün uğurları kimi sizə sevinc bəxş etsin!

60 illik yubileyiniz mübarək!

Hörmətlə,

**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*



25 yaşlı Vüqar Vəliyev müəllimlik fəaliyyətinə başlayalı cəmi bir il idi. Şagirdləri ilə arasına əvvəlcə pandemiya, sonra isə müharibə girdi. O da Quzanlıda böyüyən köçkün uşaqlara Vətəni anlatmağın qısa yolunu tapdı. 100 eşitməkdənsə, bir dəfə görsünlər dedi. Yolunu da qısaltdı, sözünü də. Vüqarın dilindən uzun-uzadı vətəni dinləməkdənsə, Vətəni Vüqar kimi sevməyi öyrətdi şəhid müəllimimiz Vüqar Vəliyev.

# Şəhid müəllimin Vətən sevgisi...

**Ruhiyyə DAŞSALAHLI**

### Biri vardı, biri yox

Onun həyatını anasından, müəllimindən dinlədikcə istər-istəməz Nüsrət Kəsəmənlinin "Biri vardı, biri yox" şeirini xatırlayırsan. Elə bil bizim Vüqar müəllimin dilindən yazıb şair:

*Uzaqdaydı mən istəyən ocaqlar,*
*Urəyimdən gəlib keçdi sazaqlar.*
*Atalıydı, analıydı uşaqlar,*
*Bizim evdə biri vardı, biri yox.*

Vüqarın da ailəsində biri vardı, biri yox. Anası Gülzadə Vəliyeva onu tək böyütdü. "Atam da var, anam da. Ancaq mən Vüqardan sonra yetim qaldım", - deyir anası. Çünki atası xərçəng xəstəliyi ilə mübarizəyə başladığı gündən etibarən Vüqar evin bütün ağırlığını öz üzərinə götürüb. O gündən məktəbə gedib, evin kiçik təsərrüfatını çəkib-çevirib, ailənin hər çətinliyini asanlaşdırıb. Atasını itirəndə V sinif şagirdi olan Vüqar gündüzlər ev-ailə qayğıları, axşamlar bacısının dərsləri ilə məşğul olub. Onun da çətinliklərinə kömək etməyə çalışıb. Necə deyərlər, anasının arxası-dayağı olub. Kənddə "Vüqar!" deyə səslənən heç kimi cavabsız qoymayıb. Uşaqla uşaq, böyüklə böyük olub. Özü böyüdükcə müəllimlərinin, sevənlərinin ona olan sevgisi də böyüyüb. Ali məktəbə daxil olmaq istəyib. İmtahan nəticələri Bədən Tərbiyəsi və İdman Akademiyasında ödənişsiz təhsil almasına imkan verib. Anası Gülzadə xanım deyir ki, uşaqlığından sərbəst şəkildə hər gün müxtəlif idman hərəkətləri ilə fiziki cəhətdən özünü inkişaf etdirib. Bu, onun idman üzrə ixtisaslaşmış ali təhsil müəssisəsinə maneəsiz qəbul olunmasını asanlaşdırıb. Bakıda yerləşən ali təhsil müəssisəsində təhsil almasına üstünlük vermələrinin səbəblərindən biri də burada yaxınlarının yaşaması olub. Bakıda yaşayış yeri problemi olmayacaqdı. Beləliklə, Vüqar bakalavr təhsilini də tamamlayıb. Hərbi xidmətə gedib. Burada atıcı kimi formalaşıb. Hərbi xidmətdən qayıdandan sonra özünə müvəqqəti iş tapıb işləyib.

### "Bilirdim ki, yaxşı nəticə göstərə bilər"

Orta məktəbdə Vüqara tarix və coğrafiya fənlərindən dərs deyən Aybəniz Həsənova keçmiş şagirdinin hərbi xidmətdən qayıtdıqdan sonra nə işlə məşğul olduğunu öyrənib: "Eşidəndə ki, nə iş olsa gedib işləyir, müəllimliyə başlamaq barədə düşünmür, çox təəssüfləndim. Onu çağırtdırdım. Uşaqlıqdan çox əziyyət çəkmişdi. Əziyyətlərinin davam etməsinə heç qıymırdım. Çağırıb dedim ki, müəllim olmaq üçün imtahanlara hazırlaşsın. O hərbi xidmətdən qayıdanda 2018-ci ildə keçirilən imtahanlar artıq bitmişdi. 2019-2020-ci dərs ili üçün keçiriləcək imtahanlara hazırlaşmaq üçün xeyli vaxtı var idi. Heç maraqlanmamışdı deyə nə edəcəyini bilmirdi. Vəsaitlər verdim, olmayan vəsaitləri əldə etməyin yolunu göstərdim. Oxumağa nə qədər maraqlı olduğunu bilirdim. Hələ orta məktəbdə müəllimi olmuşdum. Dərs deməkdən əlavə, onu evə də dəvət edir, hazırlaşmağına əlimdən gəldiyi qədər kömək eləməyə çalışırdım. Ona görə də potensialına bələd idim. Bilirdim ki, diqqətini toplayıb hazırlaşsa, müəllimlərin işə qəbulu imtahanlarında da yaxşı nəticə göstərə bilər. Hazırlaşdı və qəbul olundu".

### 18 nömrəli məktəbin qüruru

2019-cu ildə keçirilən müəllimlərin işə qəbulu imtahanında 42 bal toplayaraq Quzanlı qəsəbəsindəki Ağdam rayonu 18 nömrəli köçkün tam orta məktəbinə Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimi təyin olundu. Məktəbin direktoru Sürəyya Bayramovanın sözlərinə görə, məktəbdəki fəaliyyəti az olsa da, dünyagörüşlü olduğunu artıq göstərmişdi: "Məktəbimizin ən gənc müəllimi məhz Vüqar müəllim idi. Kişi müəllimlərimiz də azdı. Cəmi 10 kişi müəllimimiz var. Əksəriyyəti yaşlı müəllimlərdir. Vüqar müəllim hamıyla mehriban münasibət saxlayırdı. Şagirdləri də onu sevirdi. Şəhid olması hamımızı təəssüfləndirsə də, o, artıq hər birimizin qürurumuzdur".

### Şəhid olduğu o gün

Anası Gülzadə xanım oğlu ilə ölümündən əvvəl danışıb. Dönə-dönə tapşırıb ki, telefonla danışmaq üçün özünü təhlükəyə atıb yüksəkliyə çıxmasın: "Ölümündən əvvəl də zəng eləmişdi. Danışanda harda olduğunu soruşmazdım. İstəmirdim döyüşdən danışsın. Bir-iki dəqiqə danışırıq, onda da fikrini dağıtmağa, yaxşı şeylərdən danışmağa çalışırdım. O da harda olduqlarını demirdi. Şəhid olanda silah yoldaşları danışdılar ki, Suqovuşanda şəhid olub. Həmin döyüşdə onunla bərabər 16 bala şəhid olub".

Gülzadə ananın mərd oğlu, Aybəniz müəllimin səmimi, mehriban şagirdi böyüyüb müəllim oldu. "Vüqarı atasının yanına dəfn etdik. Həmin gün ermənilərin artilleriya atəşi altında onu son mənzilinə yola saldıq. Onun yoxluğuna hələ də dözəmmirəm. Elə bil doğma balamı itirmişəm" - deyir müəllimi Aybəniz Həsənova.

Vətənini sevdi Vüqar. Şəhidliyi ilə sevməyi də öyrətdi.

Şəhid müəllim Vüqar Vəliyev ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.


**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 1138, **Sifariş** 53

**Məsul növbətçi:** O.Mustafayev


## Etibarsız sayılır

**Culfa şəhər** 38 nömrəli Dəmiryol orta məktəbin (indiki 2 nömrəli tam orta məktəb) IX sinfini 1991-ci ildə bitirmiş Bayramov Qadir Salman oğluna verilmiş 010725 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**22 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1993-cü ildə Zöhrabov Vüqar Qaryağdı oğluna verilmiş 0971565 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Babayev Elvin Pənah oğluna verilmiş A-189811 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 293 nömrəli tam orta məktəb tərəfindən Mustafayeva Fidan Şair qızına 2017-ci ildə verilmiş C-020882 nömrəli ümumi orta təhsil haqqında attestat və 2019-cu ildə verilmiş E-194730 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 90 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Əliyev Ayxan Araz oğluna verilmiş A-614638 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2016-cı ildə Talışinskiy İsgəndər Rüstəm oğluna verilmiş AN-094399 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 4 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Qarayev Nemət Həbib oğluna verilmiş 638235 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Aslanova Cəmilə İlham qızına verilmiş B-105919 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əliyeva Aytən Fikrət qızına verilmiş A-055472 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Soltani Fakhr Mehdi Mahmud oğluna verilmiş E-197880 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Rəssamlıq Akademiyası** nəzdində İncəsənət Kolleci tərəfindən 2014-cü ildə Kərimova Ülkər Vasif qızına verilmiş AA-045499 nömrəli subbakalavr diplom və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Paşalı Samirə Vüqar qızına verilmiş A-123555 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 299 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Mansurova Fəridə Səfərəliyevnaya verilmiş B-516368 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 118 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Əsədli (Mustafayeva) Məleykə Səfər qızına verilmiş A-433392 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2004-cü ildə İbrahimov Ruslan Vəkalət oğluna verilmiş B-011558 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Alıyev Hüseyn Rasim oğluna verilmiş B-541247 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2010-cu ildə Əliyev Samir İsrayıl oğluna verilmiş B-183141 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 247 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Süleymanova Nigar Yasər qızına verilmiş B-011739 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Turaclı kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Cavadova Yeganə Şaban qızına verilmiş B-671405 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** Dünya Məktəbini 2019-cu ildə bitirmiş Tağıyev Fərhad Qaməddin oğluna verilmiş C-310844 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** Texniki fənlər təmayüllü internat tipli məktəb-liseyi 2006-cı ildə bitirmiş Gözəlov Ruslan Oktay oğluna verilmiş B-334372 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 6 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Əlihüseynova (Veyisova) Badam Akif qızına verilmiş B-136294 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Çaykənd kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Nəsibova Sevinc İlham qızına verilmiş A-529106 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Ləki qəsəbə tam orta məktəbi 1985-ci ildə bitirmiş Yusifov Azad Məmmədismayıl oğluna verilmiş A-930222 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Universiteti** tərəfindən 1985-ci ildə Əzizova Fəridə Saab qızına verilmiş HB-971680 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 7 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Şükürzadə Sevinc Müzəffər qızına verilmiş E-263913 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** Təbiət-riyaziyyat və Humanitar Elmlər Təmayüllü Liseyi 2003-cü ildə bitirmiş Həşimova Səba Füzuli qızına verilmiş A-685394 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 4 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Budaqova Vüsalə Mehdi qızına verilmiş A-685605 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi 5 saylı Ərazi Maliyyə Hesablama Mərkəzinin rəisi Şahruddin Qallacova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Fidan Bilalovaya nənəsi

**İSMƏT AĞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin riyaziyyat müəllimi Validə Nəbiyevaya qardaşı

**MÜBARİZ NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin fizika müəllimi Gülşad Laqarovaya həyat yoldaşı

**RƏFAEL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə caşsağlığı verir.

# Amerikada ilkə imza atan azərbaycanlı gənc



**Tanıtım:** 1985-ci il dekabrın 24-də Bakıda anadan olub. 2003-cü ildə 116 nömrəli tam orta məktəbi bitirərək Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə qəbul olunub. 2007-ci ildən təhsilini mübadilə proqramı əsasında İstanbul Universitetinin tibb fakültəsində davam etdirib. 2009-cu ilin iyul-avqust aylarında ABŞ-ın Nyu-York şəhərində yerləşən “Medical College”də molekulyar genetika və ginekologiya laboratoriyasında elmi fəaliyyətlə məşğul olub. 2010-cu ilin mayında ABŞ-ın “Sloan-Kettering” Xərçəng Mərkəzində biraylıq kurs keçib. 2010-cu ildə tibb fakültəsinin məzunu olub. 2011-2012-ci illərdə ABŞ-ın Corciya statının Atlanta şəhərində yerləşən və bir çox ən müasir laparoskopik cərrahiyyə əməliyyatlarının ilk dəfə icra edildiyi “Minimally Invasive Gynecology Institute”da, 2012-2013-cü illərdə isə Ohayo statında yerləşən Klivlend klinikasında ginekoloji onkologiya üzrə postdoktoral elmi fəaliyyətlə məşğul məşğul olub. Bir neçə məqaləsi məşhur jurnallarda yayımlanıb. Amerikada həkimlik fəaliyyəti ilə məşğul olmağa icazə verən “USMLE” imtahanlarında ən yüksək bal toplayaraq “ECFMG” sertifikatına layiq görülüb. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 2013-2017-ci illərdə Kornell Universitetində rezidentura təhsili alıb. Ötən ilin fevralında ABŞ-ın “The American Board of Obstetrics andGynecology” imtahanını uğurla verərək həkimlər kollegiyasına üzv olub.

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

## *Anar Qocayev:*

## “Hədəfim gələcək akademik fəaliyyətim üçün gözəl bir təməl qurmaqdır”

*- İlk növbədə, ABŞ-da rezidentura təhsilinz barədə məlumat verməyinizi xahiş edirik.*

2013-cu ildə ABŞ-ın Kornell Universitetinin rezidenturasına qəbul oldum və rezidentura təhsilimi Nyu-Yorkda “Jamaica Hospital Medical Center” də etdim. Amerikada təhsil müddəti rezidentura üçün 4 ildir. Rezidentura təhsil müddətində Amerikada və dünyada məşhur olan Yel Universitetində, “Sloan-Kettering” Xərçəng Mərkəzində, Klivlend klinikası kimi xəstəxanaların ginekologiya bölmələrində toplam 4 ay olmaqla iş təcrübələri keçdim. Rezidentura təhsilimi 2017 -ci ildə tamamladım. Və 2017-ci ildən bu günə kimi Nyu-York şəhərindəki xəstəxanaların birində həkim olaraq fəaliyyətimi davam etdirirəm. İstər rezidentura təhsili müddətində, istərsə də məzun olduqdan sonra həkimlik fəaliyyəti dövründə Azərbaycan Tibb Universitetində həkimlər və tələbələr üçün bir neçə dəfə öz təşəbbüsümlə seminarlar vermişəm. Bundan başqa, bir neçə il əvvəl feysbuk sosial şəbəkəsində Azərbaycan və Amerika Tibb Forumunu yaratdım. Forum vasitəsilə çox sayda azərbaycanlı həkim və tələbələr Amerikaya gəlmək və təhsil almaq qaydaları barədə bizə müraciət edirdilər. Vaxtilə Azərbaycanda həmin seminarlara qatılan həkimlərdən bir neçəsi artıq Amerikada elmi işlərlə məşğul olur və rezidentura təhsilinə də başlayacaq.

*- Siz xaricdə rezidentura təhsilinə qəbul olunmuş ilk tələbələrimizdənsiniz. Rezidentura təhsilinin Azərbaycan üçün əhəmiyyəti, aktuallığı barədə nə deyə bilərsiniz?*

- Rezidentura təhsili nəinki Azərbaycan üçün, dünyanın hər yerində, inkişaf etmiş, inkişaf etməmiş və ya inkişaf etməkdə olan ölkələrdə belə ən vacib mərhələdir. Açığı, rezidentura təhsili olmadan bacarıqlı həkim yetişdirmək həddən artıq çətindir və ya mümkünsüzə yaxındır. Çünki tibb fakültəsindən məzun olan həkim, əlbəttə ki, müəyyən bilikləri, bacarıqları bir il içərisində internatura dövründə öyrənə bilməz. Əgər bacarıqlı həkimlər yetişdirmək istəyiriksə, mütləq çox güclü bir rezidentura sistemi qurmaq lazımdır. Çox vacib məsələlərdən biri isə, məncə, rezidentura təhsili alıb Azərbaycana qayıdan həkimlərin Azərbaycan Tibb Universitetində fərqli fakültələrdə fəaliyyət göstərməyə dəvət olunmasıdır.

**Tibb fakültəsindən məzun olan həkim, əlbəttə ki, müəyyən bilikləri, bacarıqları bir il içərisində internatura dövründə öyrənə bilməz. Əgər bacarıqlı həkimlər yetişdirmək istəyiriksə, mütləq çox güclü bir rezidentura sistemi qurmaq lazımdır.**

*- Bildiyimizə görə, siz həm də xaricdə rezidenturadan sonrakı təhsilə (fellowship) qəbul olunmuş ilk azərbaycanlı tələbəsiniz. Bu barədə nə deyə bilərsiniz? Bu cür təhsil sizin üçün nə dərəcədə prioritet oldu?*

- Bildiyim qədər, nəinki Amerikada, bütün dünyada pernitalogiya üzrə rezidenturadansonrakı təhsilə qəbul olunan ilk azərbaycanlıyam. Pernitalogiya yüksək riskli hamiləliklərin, ana və ana bətnində olan uşağın müalicəsi ilə məşğul olan bir elm sahəsidir. Bu gün və gələcək üçün çox vacib olan bir sahədir. Tək bu ixtisasda deyil, digər ixtisaslarda da hər hansı bir seçim edərkən, məncə, ilk növbədə, bu ixtisası nə qədər sevirsiniz və həyatınızı bu sahədə işləməklə keçirə biləcəksinizmi - buna qərar vermək lazımdır. Bundan başqa, ixtisasın gələcək üçün nə qədər vacib bir sahədir - onun da böyük əhəmiyyəti var. İndiyə qədər xaricdə bu istiqamət üzrə təhsil almış mütəxəssis olmadığına görə fikirləşdim ki, bu sahədə ixtisas ala bilsəm, bunun Azərbaycan üçün çox faydaları ola bilər.

*- Elmi jurnallarda dərc olunubsunuz?*

- İndiyə qədər təxminən 10-a yaxın məqaləm ginekologiya üzrə impakt faktoru ən yüksək olan dərgilərdə dərc olunub. Və məqalələrimə indiyə qədər təxminən yüzə yaxın istinad olub.

*- Təhsil və elmi həyatınızda Dövlət Proqramının əhəmiyyətini və rolunu necə qiymətləndirirsiniz?*

- Mən şəxsən sadə bir həkim və müəllim ailəsindənəm. Anam Pəri Qocayeva Bakıdakı 257 nömrəli tam orta məktəbdə müəllim işləyir. Atam isə 19 saylı Birləşmiş şəhər xəstəxanasının həkimidir. Dövlət Proqramı olmasaydı, şəxsən mənim üçün, sadə bir ailədən gələn tələbə üçün Amerikaya gəlmək və burada təhsil almaq qeyri-mümkün olacaqdı. Dünyanın hansı ölkəsində olsanız, nə qədər istedadınız olsa da müəyyən mərhələdən sonra mütləq maddi bir dəstəyə ehtiyac olur. Mən öz nümunəmdəm göstərə bilərəm ki, Azərbaycan Tibb Universitetində tibb fakültəsində ən yüksək qiymətlərlə oxumuşam, əlaçı olmuşam. İstanbul Universitetində tibb fakültəsində də çox yüksək qiymətlərlə oxumuşam, hər zaman örnək tələbələrdən olmuşam. Əgər Dövlət Proqramına qəbul olmasaydım Amerikaya gəlib təhsil almağım mümkün olmazdı. Dövlətimiz bu proqram vasitəsilə tələbələrə ən gözəl şəkildə öz dəstəyini göstərir.

*- Sizcə, gənclərimizin elmi tədqiqatlara marağını artırmaq üçün nə kimi işlər görməliyik?*

- Tələbələrin elmə marağını artırmaq üçün məncə ali məktəb artıq çox gecdir. Biz bu işə çox ciddi şəkildə orta məktəblərdə, hətta orta məktəblərin VI - VII, ən gec IX və XI siniflərdə başlamalıyıq. Bütün inkişaf etmiş ölkələrin təcrübəsi bunu göstərir ki, mütləq şəkildə bu təhsili, təşviqatı, təbliğatı orta məktəblərdə başlamaq lazımdır.

**Tələbələrin elmə marağını artırmaq üçün məncə ali məktəb artıq çox gecdir. Biz bu işə çox ciddi şəkildə orta məktəblərdə, hətta orta məktəblərin VI-VII, ən gec IX və XI siniflərdə başlamalıyıq. Bütün inkişaf etmiş ölkələrin təcrübəsi bunu göstərir ki, mütləq şəkildə bu təhsili, təşviqatı, təbliğatı orta məktəblərdə başlamaq lazımdır.**

*- Azərbaycan gəncliyinin erməni təcavüzünə qarşı rəşadətli Zəfərini, torpaqlarımızın işğaldan azad olunmasını necə qarşıladınız?*

- Burada bizim qurduğumuz Azərbaycan - Amerika Tibb Cəmiyyəti var. Müharibənin ilk günündən etibarən cəbhədəki hadisələri çox yaxından izləyirdik və əlimizdən gələn bütün köməyi göstərməyə çalışdıq. Bizim göstərdiyimiz əsas kömək o oldu ki, istər bütün siyasi orqanlara, əhəmiyyətli qurumlara, dünyada sözü keçən televiziya, onlayn sosial media orqanlarına, istərsə də Konqresə, müxtəlif ştatların siyasi orqanlarına öz məktublarımızı və mesajlarımızı göndərməyə çalışdıq. Bunun uğurlu olduğuna da inanıram. Özümüz burada olsaq da, ürəyimiz Azərbaycandadır. Müharibənin ilk günündən bəri gecə-gündüz ağlımız, düşüncələrimiz Azərbaycandadır. Hadisələri çox yaxından izləmişik. Bu, bizim əlbəttə ki, tarixi qələbəmizdir. Son bir neçə 100 ildə, bəlkə də min ildə belə bir qələbəmiz olmayıbdır. Bu qələbə bizim üçün son olmamalıdır. Bu qələbə bizim üçün bir başlanğıc olmalıdır. Bundan sonra da harada olmağımızdan asılı olmayaraq hər bir azərbaycanlı gecə-gündüz əlindən gələn hər bir şeyi etməlidir ki, ölkəmizin gələcəyi, xalqımızın gələcəyi daha da gözəl olsun. Bu qələbə münasibətilə də qəzetinizin bütün üzvlərini, xalqımızı bir daha ürəkdən təbrik edirəm.

*- Gələcəklə bağlı hansı planlarınız var?*

- Gələcək planlarım çoxdur. Əlbəttə ki, hədəfim rezidenturadansonrakı təhsilimi gözəl bir şəkildə tamamlamaq, sonra gələcək akademik fəaliyyətim üçün gözəl bir təməl qurmaq və prosesdə də əlimdən gələn qədər daha çox azərbaycanlı həkimlərə və tələbələrimizə yol göstərmək, mümkün qədər onların da Amerikada təhsil almasına kömək eləmək mənim birinci məqsədimdir. Bundan başqa, Azərbaycan -Amerika Tibb Cəmiyyəti olaraq son vaxtlarda bir layihə üzərində işləməyə başlamışıq. Bu layihədə əsas məqsədimiz Amerikada olan həkimləri bir qrup, onlayn klinika şəklində təşkil edib Azərbaycandakı həmkarlarımızla bərabər bir distant klinika olaraq ilk növbədə şəhid ailələrinə, qazilərimizə pulsuz bir konsultasiya xidməti yaratmağı nəzərdə tutmuşuq. Ümid edirəm ki, bu iş bir-iki ayın içərisində hazır ola bilər. Uzunmüddətli planlar arasında, əlbəttə ki, 2 əsas planım olduğunu demək istərdim. Birincisi, ildə bir -iki dəfə gəlib Azərbaycanda qısamüddətli də olsa müəyyən imtiyazlı ailələrə pulsuz tibb xidməti göstərmək istəyərəm. Bundan başqa, dünyada belə bir təcrübə var ki, qrup halında həkimlər, məsələn, inkişaf etmiş ölkələrdə - Amerikada fərqli ölkələrə gedib orada yerli insanlara xidmət edirlər. Digər tərəfdən tibb fakültələrinin tələbələrinə öz tövsiyələrini verə bilərlər. Xaricdən dəvət olunmuş professorlar, həkimlər gəlib Azərbaycan Tibb Universitetində tələbələrə müəyyən qədər iş təcrübəsi və yaxud da biliklər qazandıra bilərlər.